*Yeni iliniz mübarək!*


# Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi

*Aylıq idman bülleteni* № 01 (09), yanvar 2010


# 2009-cu il uğurlar və rekordlarla yadda qalacaq



## Prezident İlham Əliyev idman ictimaiyyəti ilə görüşdü

## İlin ən yaxşıları "Buta Palas"da elan edildi



# ŞAĞAN



## Olimpiya-İdman Kompleksi istifadəyə verildi

# Gənclər və İdman Nazirliyinin aylıq nəşri

**Redaksiya heyəti:**
Azad Rəhimov
İsmayıl İsmayılov
Fuad Hacıyev
Mirkamil Rəhimov
Vüqar Əhmədov
İskəndər Şəkinski
İradə Rüstəmzadə
Aydın Məmmədov
Cəbrayıl Həsənov
Nicat Həsənov
Mütalib Həsənov
Nüvər Xasıyev

**Buraxılışın redaktoru:**
Qabil Mehdiyev

**Müxbirlər:**
Bəxtiyar Məmmədov
Vüqar Məmmədov
Əli Fərəcov
Kamran Hacı
Fidan Əliyeva

**Fotoqraf:**
Dilavər Nəcəfov

**Dizayner:**
Vəfadar Əliyev

**Korrektor:**
Arif Məmmədov

**Telefon:** 434-57-32, 510-53-10
**Faks:** 510-53-10
**Email:** idman32@mail.ru

## *Bu sayımızda...*

Prezident İlham Əliyev şahmat üzrə Avropa çempionatının qalibi olmuş kişilərdən ibarət Azərbaycan milli komandasının üzvlərini qəbul edib ............ 3

Şamaxıda şahmat məktəbi yenidən qurulub ............ 5

Azərbaycan Prezidenti İlham Əliyev AİBA prezidenti Çinq-Kuo Vunu qəbul edib ............ 5

Milli Olimpiya Komitəsi 2009-cu ilə yekun vurub, idmançılara, məşqçilərə və mütəxəssislərə mükafatlar təqdim olunub ............ 7

Prezident İlham Əliyev Bakının Şağan qəsəbəsində olimpiya-idman kompleksinin açılışında iştirak edib ............ 10

Azərbaycan idmanında yeni rekord - 619 medal! ............ 12

2009-cu ilin ən yaxşı idmançıları ............ 13

2009-cu il uğurlar və rekordlarla yadda qalacaq ............ 14

Azərbaycan Kuba ilə idman əlaqələri yaradır ............ 15

“Beynəlxalq idman həyəcanı” proqramının ölkəmizdə icrası yüksək qiymətləndirildi ............ 16

Nazir Azad Rəhimov britaniyalı həmkarı ilə görüşdü ............ 17

Azərbaycan beynəlxalq yarışlar məskənidir ............ 18

Naxçıvan şəhər Uşaq-Gənclər İdman Məktəbinin yeni binası istifadəyə verilib ............ 19

İdmançılara və məşqçilərə fəxri adlar təqdim edildi ............ 20

AİBA-nın Forumu və dünyanın ən yaxşı boksçularının mükafatlandırılma mərasimi Bakıda keçirildi ............ 21

Gənclər və İdman Nazirliyinin yeni müəssisəsi yaradılıb ............ 21

Ötən ayların əsas uğurları ............ 22

“Yaxşıların yaxşısı-2009” ............ 23

Daha bir tarixi uğur! ............ 23

# PREZİDENT İLHAM ƏLİYEV ŞAHMAT ÜZRƏ AVROPA ÇEMPİONATININ QALİBİ OLMUŞ KİŞİLƏRDƏN İBARƏT AZƏRBAYCAN MİLLİ KOMANDASININ ÜZVLƏRİNİ QƏBUL EDİB



Noyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiyada keçirilmiş şahmat üzrə Avropa çempionatının qalibi olan kişilərdən ibarət Azərbaycan milli komandasının üzvlərini qəbul etmişdir.

Şahmatçıları qələbə münasibətilə təbrik edən Prezident İlham ƏLİYEV dedi:

- Əziz dostlar, sizi böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan şahmatçıları Avropa çempionatının qalibləridir. Bu, böyük və tarixi qələbədir. Şahmatçılarımız çox istedadlıdırlar, müxtəlif beynəlxalq yarışlarda, turnirlərdə yaxşı nəticələr göstərirlər və FİDE-nin reytinqində də yüksək yerləri tuturlar. Ancaq ilk dəfədir ki, şahmatçılarımız komanda hesabında birinci olublar. Bu, böyük qələbədir, böyük sevincdir.

Siz yaxşı bilirsiniz ki, ən güclü şahmat komandaları məhz Avropa ölkələrindədir. Avropada birinci olmaq, əslində, dünya miqyasında birinci olmaq deməkdir. Bu, doğrudan da böyük uğurdur. Sizi bütün bu gözəl hadisələr, qələbələr münasibətilə bir daha ürəkdən təbrik edirəm.

Bu qələbə bir daha Azərbaycanın imkanlarını, Azərbaycan xalqının intellektual potensialını göstərir və Azərbaycanın idman sahəsində uğurlarını bir daha təsdiq edir. İdman növlərinin demək olar ki, əksəriyyətində intellektual potensial mühüm rol oynayır. Ancaq şahmat elə bir idman növüdür ki, burada sırf intellekt mübarizəsi gedir. İdmançılarımızın - şahmatçılarımızın belə gözəl çıxışları, belə yüksək nailiyyətləri hamımızı ürəkdən sevindirir. Bir də onu göstərir ki, Azərbaycanın idman potensialı və intellektual potensialı çox yüksək səviyyədədir.

Qadınlardan ibarət komandamız da yaxşı nəticə göstərmişdir, üçüncü-dördüncü yerləri tutmuşdur. Bu da çox yaxşı nəticədir və mən qadınları da bu nəticə münasibətilə ürəkdən təbrik etmək istəyirəm.

Onu da qeyd etmək istəyirəm ki, komandamızın üzvlərinin yaş həddi də çox aşağıdır, gənclərdən ibarətdir. Bu da çox sevindirici haldır. İdmançılarımızın hamısı müstəqillik dövründə böyümüşlər, müstəqillik dövründə oxumuşlar, tərbiyə almışlar. Bu, onu göstərir ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan belə gözəl idmançıları, belə ağıllı insanları yetişdirir.

Azərbaycanda şahmat ənənələri həmişə güclü olubdur. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə bütün rayonlarda şahmat məktəbləri tikilmişdi. Bu da şahmatın inkişafına böyük təkan vermişdir. Düzdür, müstəqilliyimizin ilk illərində - 1990-cı, 1991-ci, 1992-ci illərdə o şahmat evlərinin böyük əksəriyyəti dağıldı, bağlandı, bəziləri özəlləşdirildi, satıldı. Yəni əslində, o illərdə Azərbaycanda hər yerdə olduğu kimi, bu sahədə də hərc-mərclik hökm sürürdü və şahmata, əslində, diqqət göstərilmirdi. Ancaq bu gün bütün bölgələrdə şahmat məktəbləri ya bərpa edilir, ya da ki, yenidən tikilir. Mən bölgələrdə tez-tez oluram və bir neçə şahmat evinin açılışında şəxsən iştirak etmişəm. Çox şadam ki, bu gözəl ənənələr bərpa edilir. Belə olan halda, xüsusilə idmançılarımızın belə yüksək nəticələr əldə etmələri ilə əlaqədar, əminəm ki, şahmat məktəblərinə axın daha da sürətlənəcək, uşaqlarımız idmanın bu gözəl növü ilə daha da kütləvi şəkildə məşğul olacaqlar.

Mən bir daha sizin hamınızı ürəkdən təbrik etmək istəyirəm - ilk növbədə idmançıları, şahmatçıları, onların məşqçilərini, federasiya rəhbərliyini. Bu, doğrudan da böyük və tarixi qələbədir, siz bu qələbəyə layiqsiniz. Siz uzun illər bu qələbəyə doğru addımlamısınız və bu qələbə sizin fəaliyyətinizin məntiqi nəticəsidir. Bir daha sizi təbrik edirəm, sizə gələcək uğurlar və qələbələr arzulayıram.

* * *

Azərbaycan Şahmat Federasiyasının prezidenti Elman RÜSTƏMOV federasiya adından dövlətimizin başçısına minnətdarlığını bildirdi və bu qələbəyə aparan yolun heç də asan olmadığını söyləyərək dedi:

- Cənab Prezident, idmançılarımız, şahmatçılarımız, onların məşqçiləri adından, federasiyanın adından Sizə öz dərin minnətdarlığımızı bildiririk. Doğrudan da bu qələbəyə gedən yol, cənab Prezident, çox uzundur və bu, asan bir qələbə deyildir. Bir neçə illər öncə ümummilli öndərimiz Heydər Əliyev şahmatçıları qəbul edəndə onlar gənc idilər, uşaq idilər. Bir şəkil vardı, bu uşaqlar ulu öndərin əhatəsində bu otaqda çəkdiriblər. Bütün beynəlxalq şahmat ictimaiyyəti o şəkli çox yaxşı tanıyır.

Cənab Prezident, gələcəyimizin yolu oradan başlayır. Bu uşaqların, şahmatçıların böyüməsində, onların idman ustalığının artırılmasında ulu öndərimizin doğrudan da çox böyük zəhməti vardır. Onlara çox böyük zəhmət çəkilibdir, diqqət yetirilibdir və Sizin tərəfinizdən çox böyük işlər görülübdür.

Təbii ki, bu qələbə həm də ölkədə

gedən proseslərin tərkib hissəsidir. Bu gün ölkə bütün sahələrdə yüksəlişdədir. Ölkəmiz tam bir renessans dövrünü yaşayır. Məndən orada soruşanda ki, bu qələbə nəyə ithaf olunur?! Deyirdim ki, Azərbaycan şahmatçıları qələbəni məhz bu dövrə ithaf edirlər. Bu, renessans dövrünün nəticəsidir.

Qələbə olduqca çətin bir mübarizə şəraitində qazanıldı. Biz orada bilirdik ki, bütün Azərbaycan kompüterdə onlayn rejimində yarışı izləyir. Son gedişlərdə biz Rusiya milli komandasını üstələdik və qələbə qazandıq. Bir gün öncə komandanın toplantısı oldu və orada birmənalı olaraq hamı qərara gəldi ki, bu qələbə Azərbaycana olduqca lazımdır. Bu qələbəni bizdən gözləyirlər. Ölkə, rəhbərlik, cənab Prezident, bizdən ancaq qələbə gözləyir, ancaq qələbəyə oynamaq lazımdır. Uşaqlar böyük iradə göstərdilər və böyük iradə ilə qalib gəldilər. Biz çox xoşbəxtik ki, dünyanın ən intellektual oyunu hesab olunan bir idman növündə qocaman Avropada milli yığma komandamız birincidir.

Siz doğru buyurdunuz ki, ən güclü komandalar Avropadadır. Buna baxmayaraq, biz iddialıyıq, qarşımızda böyük turnirlər var - dünya çempionatları, Olimpiya oyunları vardır. Biz çalışacağıq ki, bu qələbəni daha da inkişaf etdirək.

Bir daha Sizə minnətdarlığımı bildirirəm.

* * *

Komandanın kapitanı Zurab AZMAYPARAŞVİLİ Azərbaycan idmançılarının qələbəsi münasibətilə Beynəlxalq Şahmat Federasiyasının prezidenti Kirsan İlümjinovun təbrik məktubunu Prezident İlham Əliyevə təqdim etdi.

Z.Azmayparaşvili Prezident İlham Əliyevin idmanın, o cümlədən şahmatın inkişafına göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirərək, Azərbaycanda idmanın bu növünün inkişafına dair təsdiq edilmiş proqramın FİDE-də xüsusi razılıqla qarşılandığını vurğulamışdır. O, şahmatçılarımızın bacarığına əmin olduğunu və qələbəyə əvvəlcədən inandığını demişdir. Z.Azmayparaşvili yarış zamanı dövlət başçısının həm də Milli Olimpiya Komitəsinin prezidenti kimi şahmatçılarımıza bəslədiyi ümidi doğrultmağın əsas qayə olduğunu və bu məqsədə çatmaqdan məmnunluq hissi keçirdiklərini bildirmişdir. Komandanın kapitanı qeyd etmişdir ki, şahmatçılarımızın növbəti hədəfi dünya və Olimpiya çempionu olmaqdır.

* * *

Prezident İlham ƏLİYEV komanda oyunlarında şahmatın digər idman növlərindən fərqləndiyini, burada komanda ruhunun yüksək olması ilə yanaşı, fərdi bacarığın qələbə üçün həlledici meyar olduğunu demişdir. Bu mənada komanda üzvlərinin, məşqçilərin və Azərbaycan Şahmat Federasiyasının birgə fəaliyyətinin qələbənin təmin edilməsində müstəsna əhəmiyyəti olmuşdur.

Dövlətimizin başçısı onu da əlavə etmişdir ki, Azərbaycanda idman federasiyalarına həyat təcrübəsinə malik nüfuzlu şəxslər seçilir və müxtəlif beynəlxalq yarışlarda qazanılan uğurlar bu meylin özünü doğrultduğunu dəfələrlə sübut etmişdir.

* * *

Komandanın üzvü Vüqar HƏŞİMOV qeyd etmişdir ki, müxtəlif vaxtlarda şahmatçılar fərdi yarışlarda yüksək nəticələr göstərmişlər. Lakin ilk dəfədir ki, Azərbaycan şahmatçıları komanda şəklində Avropa çempionu olur.

Bu gün peşəkar şahmatçıya çevrilmələrində ulu öndər Heydər Əliyevin böyük xidmətlərini vurğulayan Vüqar Həşimov dedi:

- Burada qeyd olundu ki, bizim hər birimiz müstəqillik dövründə boya-başa çatmışıq. Onu da qeyd edim ki, ulu öndərimizin sözsüz ki, böyüməyimizdə, ümumiyyətlə, professional şahmatçıya çevrilməyimizdə çox böyük xidmətləri vardır. Çünki məhz o vaxtlar biz gənc idik, təxminən 11-12 yaşımız var idi. Məhz o vaxtlar şahmat yolunu davam etdirmək və yaxud oxumaq, təhsilimizə davam etmək bizim seçimimiz idi. Sözsüz ki, ulu öndərimizlə görüşdən sonra biz qəti seçimimizi etdik və peşəkar şahmatçıya çevrildik.

Sözsüz ki, cənab Prezident, Sizə də çox böyük minnətdarlığımızı bildiririk. Çünki Siz də heç vaxt öz köməyinizi bizdən əsirgəməmisiniz. Hər zaman nə lazım olubsa, Siz onu etmisiniz, xüsusən də mənə. Bilirsiniz ki, mən bir neçə il şahmatdan ayrı qaldım və sonra Sizin dəstəyiniz və yardımınız sayəsində yenidən şahmata qayıtdım. Buna görə Sizə minnətdaram.

Şahmatçıların hamısının adından Sizə bu gün də söz veririk ki, biz gələcəkdə də əlimizdən gələni edəcəyik ki, həm komanda şəklində dünya çempionu, Olimpiya çempionu olaq, həmçinin fərqi yoxdur, kim olursa-olsun, Allahın köməyi ilə şahmat tacını Azərbaycana qaytaraq. Bir daha təşəkkür edirəm.

Prezident İlham ƏLİYEV dedi: Çox vacib amil ondan ibarətdir ki, komandamız qələbə uğrunda mübarizə aparırdı. Bu, çox vacibdir. Hansısa yüksək yer tutmaq uğrunda yox, məhz qələbə, birincilik uğrunda. Bu, çox önəmlidir. Bu, əslində, bir tərəfdən şahmatçılarımızın əzmkarlığını, digər tərəfdən idmanın şahmat növünün Azərbaycanda nə qədər sürətlə inkişaf etdiyini göstərir. Mən əminəm ki, Avropa çempionatında yarışan komandaların əksəriyyəti yüksək yer uğrunda mübarizə aparırdı. Bəlkə də bir neçə komanda çempion titulu uğrunda mübarizə aparırdı, o cümlədən Azərbaycan komandası da onların arasında. Bu, əslində, Azərbaycanın inkişafını göstərir.

Bütün başqa idman yarışlarında da idmançılarımız ancaq qələbə arzusu ilə yarışa qatılırlar. Bu, artıq reallıqdır. Azərbaycanda idmanın, demək olar ki, bütün növləri inkişaf edir və bu il - 2009-cu ildə müxtəlif idman növlərində Azərbaycan idmançıları dünya miqyasında, Avropa çempionatlarında birinci yerləri tutmuşlar. Güləş, avarçəkmə, digər idman növlərində, indi şahmat üzrə - bu, böyük tarixi qələbədir. Azərbaycan vətəndaşları bir növ bu qələbələrə öyrəşiblər. Hesab edilir ki, bu, daim belə olmalıdır. Amma heç də hər zaman belə olmur. Bu, Azərbaycan reallıqlarıdır.

Şahmatçılarımız fərdi oyunlarda da çox güclüdürlər və komanda tərkibində. Bu, ölkənin potensialını göstərir. Bir ölkədə bir görkəmli şahmatçı ola bilər. Ancaq bir neçə güclü idmançının, şahmatçının yetişdirilməsi üçün münbit şərait olmalıdır. Ölkədə bu şərait olmalıdır. Ölkənin ümumi inkişafı olmalıdır. İnkişaf etməmiş, yaxud da ki, ağır vəziyyətdə yaşayan ölkələrdə çox nadir hallarda görkəmli idmançılar belə kütləvi şəkildə yetişir. Azərbaycanda mövcud şərait, ümumi inkişaf, müasirləşmə prosesləri o qədər güclüdür ki, bu, istənilən sahəyə öz təsirini göstərir. Şahmatçılarımızın həm intellektual səviyyəsi, həm vətənpərvərlik hissləri, eyni zamanda, qələbə əzmi - bütün bu amillər qələbəni şərtləndirir. Bu, bir daha onu göstərir ki, biz böyük işlərə qadirik, bizim bütün təşəbbüslərimiz yaxşı nəticələrlə başa çatır.

Bu qələbə artıq Azərbaycan şahmat məktəbinin tarixinə qızıl hərflərlə yazılmış bir qələbədir və dünya şahmat aləmində də bu, artıq tarixdir. Bu tarixi siz yazmısınız. Mən əminəm ki, bütün Azərbaycan xalqı bu qələbəyə görə sizə minnətdardır. Əminəm ki, siz gələcək yarışlarda eyni əzmkarlıq və mübarizə ruhu ilə yeni qələbələrə doğru uğurla gedəcəksiniz. Bir daha sizi təbrik edirəm.

* * *

Sonda Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.

**AzərTAc**

# ŞAMAXIDA ŞAHMAT MƏKTƏBİ YENİDƏN QURULMUŞDUR



Noyabrın 26-da Prezident İlham Əliyev Şamaxıdakı şahmat məktəbində olmuşdur.

Məktəbin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, 1986-cı ildə tikilmiş məktəbdə ötən müddətdə təmir və bərpa işləri aparılmamışdı. Məktəbin yenidən qurulmasına Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bu ilin mayında başlanmışdır. Artıq əsaslı bərpa işləri başa çatdırılmışdır. İkimərtəbəli binanın ümumi sahəsi 2116 kvadratmetrdir. Burada 7 şahmat otağı, yarış zalı və digər yardımçı otaqlar vardır.

Dövlətimizin başçısı uşaqların məşq prosesini izlədi.

**Şahmatçı uşaq:** Hörmətli cənab Prezident, gözəl Şamaxımıza xoş gəlmisiniz. Bizim üçün belə şərait yaratdığınıza görə, Sizə dərin minnətdarlığımızı və təşəkkürümüzü bildiririk. Çalışacağıq ki, Sizin etimadınızı doğruldaq, bu qayğıya layiq olduğumuzu sübut edək. Səsimizin Avropa və dünya birinciliklərindən gələcəyinə daim səy göstərəcəyik. Bunu şahmatçı dostlarım adından əminliklə söyləyirəm.

**Prezident İlham ƏLİYEV:** Artıq 10 yaşında iki medalın vardır - biri gümüş, biri bürünc. On bir yaşında gərək birini də əlavə edəsən - qızıl.

Artıq ənənə bərpa olundu. Vaxtilə ulu öndər tərəfindən bütün rayonlarda şahmat məktəbləri tikildi. O, Azərbaycandan gedəndən sonra onların bəziləri bağlandı, bəziləri satıldı, özəlləşdirildi, dağıdıldı. İndi biz bunların hamısını bərpa edirik. Nəticəni də görürük, Azərbaycan şahmatçıları Avropada birinci oldu. Bu, tarixi qələbədir. Siz də gərək bu yolu gedəsiniz.

Şahmatçı qız respublika çempionatında birinci yer qazandığını bildirərək medalını göstərdi.

**Prezident İlham ƏLİYEV:** Səndə artıq birinci yer vardır.

Avropa çempionu adını qazanan uşaqların hamısı gəncdir. Onların hamısı müstəqillik dövründə böyüyüblər. Çoxları müstəqillik dövründə anadan olub, böyüyüb. Yəni, bu onu göstərir ki, Azərbaycan belə gözəl övladlar yetişdirir. Şərait də vardır. Bir də ki, intellektual potensial çox yüksək səviyyədədir. Əgər belə olmasaydı, - lap sən ən gözəl şəraiti yarat, - əgər intellektual potensial, güclü məktəb olmasa, nəticə mümkün deyildir. Avropa qitəsində birinci olmaq zarafat deyildir. İndi dünya şahmatı Avropada cəmləşib. Bütün komandaları geridə qoyduq və bu, artıq bir zirvədir. Uşaqlar da əlbəttə, çalışmalıdırlar ki, o zirvəyə yaxınlaşsınlar. Ancaq bununla bərabər, əsas odur ki, onlar şahmatla məşğul olmaqla öz intellektual potensiallarını artırır, genişləndirirlər. Müəllimlərin, məşqçilərin də burada böyük rolu vardır. Ona görə biz sizdən yaxşı nəticələr gözləyəcəyik.

**Məşqçi:** Cənab Prezident, Siz Şamaxıya bayram ərəfəsində qədəm qoymusunuz. Bayramımızı bir gün də artırmısınız. Ona görə məktəbimizin kollektivi adından, bax bu istedadlı şahmatçılar adından Sizin bayramınızı təbrik edirəm. Arzu edirik ki, Siz uzun ömür yaşayıb Azərbaycanda bu xarüqələrin davam etdirilməsinə on illərlə rəhbərlik edə biləsiniz. Xoş gəlmisiniz. Allah Sizə yar olsun.

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Sizi bir daha bayram münasibətilə təbrik edirəm.

**AzərTAc**

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV AİBA PREZİDENTİ ÇİNQ-KUO VUNU QƏBUL ETMİŞDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 10-da Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vunu qəbul etmişdir.

Çinq-Kuo Vu Prezident İlham Əliyev ilə Pekin Olimpiya Oyunları zamanı görüşünü məmnunluqla xatırladı. O, gələn il gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə bağlı Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin yekdilliklə qərar qəbul etdiyini dedi və bu münasibətlə təbriklərini çatdırdı. Çinq-Kuo Vu ölkəmizdə bu idman növünün inkişafı ilə bağlı Azərbaycan Boks Federasiyasının böyük səylər göstərdiyini vurğuladı.



Dövlətimizin başçısı gənclər arasında boks üzrə dünya çempionatının Bakıda keçirilməsi ilə əlaqədar Beynəlxalq Boks Assosiasiyasının İcraiyyə Komitəsinin qərarını yüksək qiymətləndirdi. Prezident İlham Əliyev mötəbər idman yarışlarının Azərbaycanda keçirilməsinin beynəlxalq idman aləmində ölkəmizin nüfuzunun getdikcə daha da artması baxımından əhəmiyyətini vurğuladı.

## V.C.ƏLİYEVƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRDİ TƏQAÜDÜNÜN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

"Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında xidmətlərinə görə Vaqif Cəfər oğlu Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
Bakı şəhəri, 22 dekabr 2009-cu il.

## AZƏRBAYCAN RESPUBLİKASININ İDMAN MÜTƏXƏSSİSLƏRİNƏ FƏXRİ ADLARIN VERİLMƏSİ HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında, tədrisi və təbliğində xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi"**
Allahverdi Yaşar Bəxtiyar oğlu
Hətəmov Əhməd Süleyman oğlu
Hüseynov Mirzə İbrahim oğlu
Xudiyev Asim Xəlil oğlu
İzuf Vladislav Georgiyeviç
Quliyev Gülbaba Balasoltan oğlu
Məmmədov İbrahim Bayram oğlu
Yelizarov Matvey Safailoviç
Zöhrabov Rauf Ramazan oğlu

**"Əməkdar Müəllim"**
Babayev Zəfər Abıgül oğlu
Əsgərov İsgəndər İslam oğlu

**"Əməkdar Jurnalist"**
Fərəcov Əli Yusif oğlu
Mehdiyev Qabil Sabir oğlu

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 22 dekabr 2009-cu il.**

## MİNGƏÇEVİR ŞƏHƏRİNDƏ "KÜR" OLİMPİYA TƏDRİS İDMAN MƏRKƏZİNİN YENİDƏN QURULMASI İLƏ ƏLAQƏDAR ƏLAVƏ TƏDBİRLƏR HAQQINDA

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı proqramlarının icrası çərçivəsində ölkəmizin şəhər və rayonlarında bədən tərbiyəsi və idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində tədbirlər uğurla həyata keçirilir.

Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması ilə əlaqədar işlərin sürətləndirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Mingəçevir şəhərində "Kür" Olimpiya Tədris İdman Mərkəzinin yenidən qurulması işlərinin sürətləndirilməsi üçün Azərbaycan Respublikasının 2009-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə 3,0 (üç) milyon manat məbləğində vəsait ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 noyabr 2009-cu il.**

# MİLLİ OLİMPİYA KOMİTƏSİ 2009-CU İLƏ YEKUN VURUB, İDMANÇILARA, MƏŞQÇİLƏRƏ VƏ İDMAN MÜTƏXƏSSİSLƏRİNƏ MÜKAFATLAR TƏQDİM OLUNUB

## Azərbaycan Prezidenti İlham Əliyev tədbirdə iştirak edib

**Dekabrın 25-də Milli Olimpiya Komitəsi (MOK) 2009-cu ilə yekun vurmuş, idmançılara, məşqçilərə və idman veteranlarına, mütəxəssislərinə mükafatlar təqdim olunub.**

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.



Dövlətimizin başçısı əvvəlcə MOK-un inzibati binasının foyesində Azərbaycanın idman həyatına, idmançılarımızın beynəlxalq yarışlarda qazandıqları qələbələrə, ölkəmizdə idmana dövlət qayğısına həsr olunmuş sərgiyə baxdı.

Sonra mərasim keçirildi. MOK-un İcraiyyə Komitəsinin iclas salonuna toplaşanlar dövlətimizin başçısını alqışlarla qarşıladılar.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

### AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NİTQİ

**- Əziz dostlar!**

**Hörmətli xanımlar və cənablar!**

2009-cu il başa çatır və biz ənənəvi olaraq ilin sonunda görüşürük. Bu görüşlərin çox böyük əhəmiyyəti vardır. Həm bir-birimizi görürük, eyni zamanda, ilin yekunları haqqında danışırıq və hər il yeni idmançılarımızın yeni uğurlarını qeyd edirik. Biz keçən il Olimpiya oyunlarının uğurlarına sevinirdik və bunu qeyd edirdik.

2009-cu il Olimpiya oyunlarından keçən birinci ildir. Adətən, Olimpiya oyunlarından sonra idmançılarda müəyyən mənada arxayınçılıq meyilləri güclənir və bu da təbiidir. Eyni zamanda, istirahətə daha da çox üstünlük verilir. Buna baxmayaraq, 2009-cu ildə idmançılarımız çox gözəl nəticələr göstərmişlər. Bütün beynəlxalq yarışlarda 600-dən çox medal qazanılmışdır ki, onların təxminən yarısı qızıl medallardır. Dörd idmançımız Olimpiya idman növləri üzrə dünya çempionatlarında birinci yerləri tuta bilmişlər. Bu da çox böyük göstəricidir.

Bizim güləş komandamız dünya çempionatında, dünya miqyasında komanda hesabı ilə birinci olmuşdur. Bu da tarixi qələbədir və böyük nailiyyətdir. Nəzərə alsaq ki, dünyada güləş çox populyar idman növüdür və yarışlarda 100-dən artıq ölkəni təmsil edən idmançılar iştirak edirlər, bu, həqiqətən də böyük və tarixi qələbədir. Gənc şahmatçılarımız Avropa çempionatında birinci yeri tuta bilmişlər. Bu, Azərbaycanın intellektual potensialını göstərir və o da çox əlamətdar haldır ki, şahmatçılarımızın hamısı gənclərdir. Onlar vətəndaş və idmançı kimi müstəqillik dövründə formalaşıblar. Digər idman növlərində - avarçəkmədə tarixi qələbələr qazanılmışdır. İlk dəfə olaraq Azərbaycanda avarçəkmə idman növü üzrə dünya çempionumuz vardır və bu idman növünün Azərbaycanda inkişafı üçün çox böyük işlər görülür. Kür Beynəlxalq Olimpiya Bazası tikilməkdədir və yəqin ki, biz gələn il o böyük, nəhəng obyektin açılışında iştirak edəcəyik. Bütün digər idman növlərində də, - hamısını sadalamaq çətindir, - uğurlarımız vardır. Əvvəllər bizim uğurlarımız demək olar ki, bir-iki idman növünü təmsil edən idmançılarla məhdudlaşırdı. Ancaq bu gün dünya və Avropa çempionatlarında bizim uğurlarımız o qədərdir ki, bütün idman növlərini sadalamaq üçün böyük vaxt lazımdır.

Azərbaycan ictimaiyyəti əlbəttə ki, bu uğurlardan xəbərdardır. Çünki idman Azərbaycanda ənənəvi olaraq diqqət mərkəzindədir. Həm televiziyalar və həm də kütləvi informasiya vasitələri idman yarışlarını geniş işıqlandırırlar. Eyni zamanda, Azərbaycanda idman həyatımızın ayrılmaz hissəsidir, ictimai həyatın önəmli amilidir. Əminəm ki, gələcək illərdə idmana, idmançılara daim diqqət və qayğı göstəriləcəkdir. Həm dövlət tərəfindən, həm də idman cəmiyyətləri, klublar, federasiyalar tərəfindən. Azərbaycanda bütün idman qurumları öz fəaliyyətlərini əlaqəli şəkildə qurublar və hesab edirəm ki, uğurlarımızın əsas səbəbi məhz ondadır. Çünki biz beynəlxalq aləmdə baş verən hadisələri izləyirik və bilirik ki, bir çox ölkələrdə olimpiya komitələri ilə nazirliklər, federasiyalar arasında ixtilaflar, ziddiyyətlər, qarşıdurma vardır. Azərbaycanda isə idmana cavabdehlik daşıyan bütün qurumlar - həm Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri vahid komanda şəklində fəaliyyət göstərirlər. Bu, bizim uğurlarımızı şərtləndirir.

Bir sözlə, 2009-cu il Azərbaycanın idman şöhrətinin ucaldılması işində çox mühüm il olmuşdur. 2009-cu ildə gənclə-



rimiz də bizi sevindirmişlər. Mən xüsusilə gənc cüdoçularımızı qeyd etmək istəyirəm. Onlar çox ağır psixoloji şəraitdə cüdo üzrə Avropa çempionatından Vətənə böyük qələbə ilə qayıtmışlar. Xüsusilə nəzərə alsaq ki, bu yarış İrəvanda keçirilirdi, əlbəttə, başa düşmək çətin deyil ki, idmançılarımızın çiyinlərinə böyük və məsuliyyətli yük düşmüşdü. O, adi yarış deyildi, Azərbaycan idmançıları ilk dəfə olaraq Ermənistanda yarışlarda iştirak edirdilər və çox uğurla iştirak etdilər. Azərbaycan Avropa çempionatında 5 idmançı ilə iştirak edirdi və beşi də Vətənə medal gətirdi, beşi də Azərbaycanın dövlət bayrağını İrəvanda ucaltdı. Eyni zamanda, bir dəfə Azərbaycanın dövlət himni İrəvanda səsləndi. Bu, böyük qəhrəmanlıqdır, böyük tarixi nailiyyətdir. Bu Azərbaycan idmanının, Azərbaycan gəncliyinin, Azərbaycan dövlətinin zəfəri, təntənəsi idi.

Bu, onu göstərir ki, Azərbaycanda idmanın inkişafı çox düşünülmüş qaydada davam etdirilir. Həm böyüklər arasında çıxış edən idmançılar öz peşəkarlığını artırırlar və həm də uğurlarımızın ildən-ilə sayı artır. Eyni zamanda, Azərbaycanda çox güclü və peşəkar gənc nəsil yetişir. Gənclər arasında müxtəlif beynəlxalq yarışlarda idmançılarımız böyük qələbələr qazanırlar. Bu, onu göstərir ki, Azərbaycanda idmanın inkişafı və təlim-məşq toplanışları, bütün idmanın inkişafı ilə bağlı məsələlər düzgün istiqamətdə inkişaf edir. Əgər belə olmasaydı, gənclər arasında uğurlarımız o qədər böyük olmazdı.

Bununla bərabər, Azərbaycanda veteran idmançılara çox böyük qayğı göstərilir. İdmançı bilir ki, əgər idmanla məşğul olan zaman böyük nəticələr əldə etsə, gələcəkdə o, veteran kimi də dövlət tərəfindən həmişə qayğı və diqqətlə əhatə olunacaqdır. Bu da çox önəmlidir. Çünki idmançılarn idman həyatı o qədər də uzun deyildir. Onlar öz bacarıqlarını, öz imkanlarını Azərbaycanın idman şöhrətinin qaldırılmasına yönəldirlər və artıq idmandan gedəndən sonra da biz onlara daim qayğı göstərməliyik.

Mən bu gün qaliblərimizi qeyd etdim, gəncləri qeyd etdim, veteranları da qeyd etmək istəyirəm. Bu il, eyni zamanda, bizim görkəmli idmançımız Namiq Abdullayevin idmanla vidalaşma ili olmuşdur. İdmançı kimi onun Azərbaycanın idman şöhrətinə verdiyi töhfələr çox dəyərlidir, çox əzizdir.

Biz hamımız xatırlayırıq ki, Sidney Olimpiya oyunlarında Namiq və Zemfira Azərbaycana iki qızıl medal gətirmişdilər. O vaxt və hətta bu gün Olimpiya oyunlarında iki qızıl medal qazanmaq böyük qələbədir. Özü də xüsusilə o illərdə ki, hələ Azərbaycanda idmanın inkişafı, əsaslı inkişafı demək olar, ibtidai vəziyyətdə idi. O qələbələr Azərbaycanın idman imkanlarının genişlənməsinə çox böyük təsir göstərmişdir. Biz hamımız xatırlayırıq ki, o qələbədən sonra idman bölmələrinə uşaqların axını nə qədər gücləndi, idmana maraq nə qədər artdı. Azərbaycan idman qələbələri ilə öyünürdü. Ona görə, bu il həm qələbə qazanmış idmançıları, eyni zamanda, idmanla vidalaşan idmançıları da qeyd etməliyik. Mən çox şadam ki, Namiq öz fəaliyyətini Güləş Federasiyasında davam etdirir. Əlbəttə ki, onun və bütün veteran



idmançıların təcrübəsi gənc nəslin yetişməsində çox önəmlidir.

Azərbaycanda, eyni zamanda, idmanla məşğul olmaq üçün gözəl şəraitin yaradılması prosesi davam edir. Bu gün səhər mən Şağan qəsəbəsində yeni Olimpiya-İdman Kompleksinin açılışında iştirak edirdim. Bu, artıq gözəl ənənədir, 20-dən çox, haradasa 30-a yaxın Olimpiya kompleksi Azərbaycanda artıq fəaliyyətdədir. Bu il beş Olimpiya-İdman kompleksi istismara verildi. Gələn il ən azı 5 Olimpiya Kompleksi istismara veriləcəkdir. Baxmayaraq ki, 2009-cu il bütün ölkələr üçün sınaq ili olmuşdur. Yəni, dünyanı bürümüş maliyyə böhranı Azərbaycandan da yan keçməmişdir. Ancaq Azərbaycanda bu vaxta qədər görülən işlər, aparılan islahatlar bizi demək olar ki, böyük çətinliklərdən qorudu. Bizim düşünülmüş siyasətimiz və 2009-cu ildə atılan addımlar demək olar, elə şərait yaratdı ki, əhalimizin tam əksəriyyəti böhranı hiss etmədi. Ancaq sirr deyil ki, ölkəmizin maliyyə imkanları əlbəttə, məhdudlaşdı. Çünki iqtisadi problemlər, dünyada baş verən hadisələr Azərbaycana da təsir etdi. Buna baxmayaraq, Azərbaycanda bütün sosial infrastruktur layihələri uğurla icra edildi, o cümlədən ölkəmizdə 5 yeni Olimpiya-İdman Kompleksi yaradıldı. Bu proseslər gələcək illərdə davam etdiriləcəkdir. Tikilməkdə olan komplekslərin bəzilərində tamamlama işləri aparılır. Bundan sonrakı illərdə biz maksimum dərəcədə çalışmalıyıq ki, Azərbaycanın hər bir rayonunda idmanla məşğul olmaq üçün yaxşı imkanlar, yaxşı şərait olsun. Biz bu işlərin nəticələrini görürük. Həm idmanın kütləviliyi artır, insanlar öz sağlamlığını möhkəmləndirirlər, həm də bölgələrdə çoxlu istedadlı gənc idmanla məşğul olmaq imkanı əldə edir.

Bax, Azərbaycanın idman imkanları gələcəkdə də bu cür inkişaf edəcəkdir. Həm idmançıların uğurlu çıxışları, həm də ölkəmizdə keçirilən və gələcəkdə keçiriləcək beynəlxalq idman yarışları artıq gözəl ənənəyə çevrilibdir. İdman infrastrukturunun yaradılması, federasiyaların, bütün idman cəmiyyətlərinin uğurlu fəaliyyəti, uşaqların, yeniyetmələrin idmana cəlb edilməsi prosesi nəinki idman üçün, ölkəmiz üçün lazımdır. Çünki əhali, insanlarımız sağlam olmalıdırlar. İnsanların sağlamlığı üçün müxtəlif tədbirlər görülür. Bütün bölgələrdə müalicə-diaqnostika mərkəzləri tikilir və o mərkəzlərdə müayinə və müalicə pulsuzdur. Mən hər dəfə diaqnostika mərkəzlərinin açılışında o bölgələrdə yaşayan insanlara müraciət edirəm, deyirəm ki, hər bir vətəndaş ildə bir dəfə müayinədən keçməlidir. Xüsusilə bu gün Azərbaycanın bölgələrində quraşdırılan avadanlıq dünyanın ən qabaqcıl xəstəxanalarında quraşdırılan avadanlıqdan fərqlənmir.



Ona görə, insanlarımızın sağlamlığı üçün kompleks tədbirlər görülür. İdman da o tədbirlərin sırasında öz yerini tutur. Eyni zamanda, ekoloji tədbirlər gücləndirilir. Gələn il Azərbaycanda "Ekologiya ili" elan edilib. Mən əminəm ki, gələn il ekoloji vəziyyətin yaxşılaşdırılması sahəsində çox vacib işlər aparılacaqdır. Əlbəttə, bu işlər ancaq gələn il ilə məhdudlaşmayacaqdır. Biz ondan sonrakı illərdə də bu işlərə böyük əhəmiyyət verməliyik.

Yəni, idman sağlamlıqdır, sağlam həyat tərzidir, ölkələrin şöhrətidir, ölkələrin ümumi inkişafını göstərir. Əgər biz beynəlxalq idman yarışlarının nəticələrinə nəzər salsaq görərik ki, əksər hallarda inkişaf etmiş ölkələrin idmançıları, - o ölkələrin ki, orada idman dövlət tərəfindən dəstəklənir, - uğurlar əldə edirlər. Azərbaycan da inkişaf etmiş ölkə olacaqdır. Biz bu yola başlamışıq və bu yolla gedirik. Azərbaycanın inkişaf etmiş ölkəyə çevrilməsi üçün bütün tədbirlər görülür. Azərbaycanda dövlət tərəfindən idmana göstərilən qayğı çox yüksək səviyyədədir. Bunu idmançılar da görürlər. Beynəlxalq idman qurumları da bunu bəyan edirlər və Azərbaycanın təcrübəsini bir çox hallarda nümunə kimi göstərirlər. Əminəm ki, idmanın Azərbaycanın ictimai həyatında oynadığı rol ancaq və ancaq artacaqdır.

Bizim gözəl idmançılarımız, çox gözəl gənclərimiz vardır. Biz gələcəyə nikbinliklə baxırıq. Azərbaycan gənclərinin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idmanın çox böyük və əvəzolunmaz rolu vardır.







Mən bu bayram ərəfəsində bir daha bütün idmançıları 2009-cu ildə qazanılmış qələbələr münasibətilə təbrik etmək istəyirəm. İdman mütəxəssislərini, məşqçiləri, bütün idman ictimaiyyətini həm əldə edilmiş uğurlarla, həm də qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. İdmançılara yeni ildə yeni uğurlar arzulamaq istəyirəm. Bütün idman ictimaiyyətini bir daha əmin etmək istəyirəm ki, mən bundan sonra da öz fəaliyyətimdə idmanla bağlı məsələlərə xüsusi diqqət göstərəcəyəm və Azərbaycanda idmanın və Olimpiya hərəkatının inkişafı üçün səylərimi davam etdirəcəyəm. Sağ olun.

* * *

İdmançılar adından Prezident İlham Əliyevə hədiyyələr təqdim olundu.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan alpinistlərinin dünyanın müxtəlif bölgələrində fəth etdikləri zirvələrə vurduqları barelyefinin nümunəsi dövlətimizin başçısına təqdim edildi.

Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, Azərbaycan "Kitab" Cəmiyyətinin sədri Zərifə Salahova idman ictimaiyyəti adından Prezident İlham Əliyevi ad günü münasibətilə təbrik etdi.

Beynəlxalq Universal Döyüş Federasiyasının təsis etdiyi bir nömrəli xüsusi qızıl medal dövlətimizin başçısına təqdim olundu.

Sonra 2009-cu ilin yekunlarına görə idmançılara mükafatlar təqdim edildi.

Qeyri-olimpiya idman növlərinin inkişafında xüsusi xidmətləri olan idmançılara Milli Olimpiya Komitəsinin bu il təsis edilmiş xüsusi Fəxri fərmanları verildi.

Dövlətimizin başçısı Seul Olimpiya oyunlarının qalibi İlqar Məmmədova MOK-un "Olimpiya" ordenini təqdim etdi.

Mərasimdə bir qrup idmançıya və məşqçiyə yeni mənzillərin orderləri təqdim olundu.

Prezident İlham Əliyev idmançıları bir daha təbrik etdi, onlara uğurlar arzuladı.

**AzərTAc**

# PREZİDENT İLHAM ƏLİYEV BAKININ ŞAĞAN QƏSƏBƏSİNDƏ OLİMPİYA-İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDİB

Dekabrın 25-də Bakının Şağan qəsəbəsində Olimpiya-İdman Kompleksinin açılışı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.

Dövlətimizin başçısı rəmzi açılışı bildirən lenti kəsdi, ölkəmizdə sayca 24-cü olan Olimpiya-İdman Kompleksi ilə tanış oldu.

Gənclər və idman naziri Azad Rəhimov məlumat verdi ki, kompleks "Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı"na əsasən inşa olunmuşdur.

Tikintisinə 2007-ci ilin noyabrında



başlanmış kompleksin ümumi sahəsi 3,25 hektardır. Əsas korpus ikimərtəbəlidir. Korpusun birinci mərtəbəsində ümummilli liderimiz Heydər Əliyevin və Prezident İlham Əliyevin respublikamızda bədən tərbiyəsinin və idmanın inkişafına göstərdikləri diqqət və qayğını, idmançılarımızın müxtəlif beynəlxalq yarışlarda uğurlarını əks etdirən fotostend quraşdırılmışdır. Burada universal idman, güləş və trenajor zalları, hakimlər otağı, soyunub-geyinmə və digər xidmət otaqları yerləşir.

Dövlətimizin başçısı kompleksin universal idman zalı ilə tanış oldu. İdmanın futbol, həndbol, voleybol, basketbol növləri ilə məşğul olmaq və yarışlar keçirmək üçün nəzərdə tutulan bu zaldakı tribunada 620 oturacaq quraşdırılmışdır.

İdmanın güləş, boks və digər döyüş növləri üçün nəzərdə tutulmuş zala baxan Azərbaycan Prezidentinə məlumat verildi ki, burada 615 tamaşaçı yeri quraşdırılmışdır. Dövlətimizin başçısı trenajor zalına da baş çəkdi. Buradakı avadanlıq müasirliyi ilə diqqəti cəlb edir. İndi ölkəmizdə ənənəvi olmayan idman növlərinin inkişafı da diqqət mərkəzindədir. Azərbaycanda bədən tərbiyəsi və idmanın hərtərəfli inkişafı üçün 2009-2020-ci illəri əhatə edən milli strategiya bu baxımdan geniş imkanlar açır.

Bildirildi ki, kompleksdəki zallarda həm mini-futbol, basketbol, voleybol, həm də gimnastika, boks, güləş üzrə beynəlxalq səviyyəli yarışlar keçirmək mümkündür.

Binanın ikinci mərtəbəsində yeməkxana, konfrans zalı, həkim otağı və digər xidmət bölmələri fəaliyyət göstərir. Prezident İlham Əliyev yeməkxana ilə tanış oldu.

Sonra Prezident İlham Əliyev qapalı üzgüçülük hovuzunun yerləşdiyi korpusa gəldi. Burada uzunluğu 25, eni isə 12,5 metr olan hovuzun ətrafında 135 oturacaq quraşdırılmışdır. Korpusun inzibati hissəsi ikimərtəbəlidir. İkinci mərtəbədə məşqçi və şərhçi otaqları, şahmat otağı, həmçinin yarışları izləmək üçün lojalar vardır.

Dövlətimizin başçısı kompleksin ərazisində inşa olunmuş mehmanxana ilə tanış oldu. İkimərtəbəli mehmanxana 25 nəfər üçün nəzərdə tutulmuşdur. Burada 12 standart və bir lüks otaq vardır.

Açıq havadakı idman qurğuları ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, burada tennis kortları, mini-futbol və voleybol meydançaları yaradılmışdır.








Prezident İlham Əliyev kompleksin ərazisində 1032 tamaşaçı yeri olan süni örtüklü stadiona da baxdı. Ən yüksək standartlara cavab verən stadionda idmançılar, məşqçilər və xidmət heyəti üçün hər cür şəraiti olan pavilyon vardır.

Şağan Olimpiya-İdman Kompleksi üçün ayrıca qazanxana, transformator yarımstansiyası, üç su anbarı tikilmiş, ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılmış, ağaclar və gül kolları əkilmişdir.

Dövlətimizin başçısı kompleksdə görülən işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.

**AzərTAc**

# Azərbaycan idmanında yeni rekord - 619 medal!

## 2009-cu ilin ən yaxşıları "Buta Palas"da elan edildi









Artıq neçə illərdir ki, Gənclər və İdman Nazirliyi il ərzində idman sahəsində fərqlənənləri elan edərək mükafatlandırır. Bu mükafatlandırma mərasimi ilbəil daha böyük təntənə ilə yüksək səviyyədə keçirilir. Ənənəsinə sadiq qalan nazirlik bu dəfə idman ictimaiyyətinin nümayəndələrini "Buta Palas"a toplamışdı.

Dövlət himnimizin səslənməsi ilə başlanan təntənəli mərasimdə ilk olaraq Azərbaycan Prezidenti İlham Əliyevin idman mütəxəssislərinə fəxri adların və fərdi təqaüdlərin verilməsi barədə sərəncamları oxundu.

Ardınca ilk çıxış üçün söz gənclər və idman naziri Azad Rəhimova verildi. Nazir qeyd etdi ki, Azərbaycan idmançıları 2009-cu ildə yeni rekorda nail olaraq 619 medal qazanıblar. Bu medalların 174-ü olimpiya idman növlərində əldə edilib. İl ölkəmizin idman həyatında parlaq qələbələrlə yadda qaldı. İdmançılarımızın beynəlxalq yarışlarda qazandıqları uğurlar, bir sıra olimpiya komplekslərinin və idman mərkəzlərinin istifadəyə verilməsi, ölkəmizdə 30-dan çox beynəlxalq yarışın keçirilməsi - bütün bunlar dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin bədən tərbiyəsi və idmanın inkişafına daimi diqqətinin və qayğısının nəticəsidir.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə də çıxışında bildirdi ki, başa çatmaqda olan il Azərbaycan idmanı üçün çox uğurlu olub. İdmançılarımız cari ili yüksək göstəricilərlə başa vurublar. Ç.Hüseynzadə qeyd etdi ki, Azərbaycan idmançıları ilk dəfə olaraq, bu il ölkəmiz üçün əhəmiyyətli titulların sahibi olublar. Kişilərdən ibarət şahmat üzrə yığma komandamız Avropa çempionu adına sahib çıxıb. Avarçəkənlərimiz dünya və Avropa çempionatlarının medallarını qazanıblar. Dörd "qızıl", bir "gümüş" və bir "bürünc" medal əldə etmiş sərbəst güləşçilərimiz komanda hesabında Avropa çempionu adına layiq görülüblər. Sentyabr ayında Danimarkanın Herninq şəhərində keçirilmiş dünya çempionatında qadınlardan ibarət güləş yığma komandamız birinci yeri tutub. Qadın gimnastlarımız və atletlərimiz də yaxşı nəticələr göstəriblər.

Sonra müxtəlif nominasiyalar üzrə ilin ən yaxşıları elan edilərək mükafatlarını aldılar. *(Həmin nominasiyalar üzrə qaliblərin adları 13-cü səhifədə göstərilib-red.)*

Nəhayət, tədbirin ən maraqlı anı yetişdi. Nazir Azad Rəhimov ilin ən yaxşı idmançılarının adlarını açıqladı. Bu ada yunan-Roma güləşi üzrə ikiqat dünya çempionu Fərid Mansurov, dünya çempionatının mükafatçısı, gimnast Aliyə Qarayeva, cüdo üzrə gənclər arasında Avropa birinciliyinin mükafatçısı Elmar Qasımov, atlet Ramil Quliyev, ağırlıqqaldıran Nizami Paşayev, şahmatçı Vüqar Həşimov, qadın güləşçi Mariya Stadnik, taekvondoçu Rəşad Əhmədov, avarçəkən Valentin Demyanenko və paralimpiyaçı Hüseyn Həsənov layiq görüldülər.

Tədbirin sonunda nazir Azad Rəhimov qaliblərlə birlikdə, onların şərəfinə hazırlanmış tortu kəsdi.


1


2


3

## 2009-cu ilin ən yaxşı idmançıları


4


5

1. Fərid Mansurov (yunan-Roma güləşi)
2. Aliyə Qarayeva (gimnastika)
3. Elmar Qasımov (cüdo)
4. Ramil Quliyev (atletika)
5. Nizami Paşayev (ağırlıqqaldırma)
6. Mariya Stadnik (güləş)
7. Vüqar Həşimov (şahmat)
8. Rəşad Əhmədov (taekvondo)
9. Valentin Demyanenko (avarçəkmə)
10. Hüseyn Həsənov (paralimpiya)


6


7


8


9


10

## 2009-cu ilin ən yaxşıları

1. **İlin komandası** - “Araz” futzal klubu
2. **İlin intellektual komandası** - Şahmat yığması
3. **İlin ən yaxşı hakimi** - Faiq Həsənov
4. **İlin ən yaxşı idman verilişlərinin təşkilatçısı** - İctimai Televiziya
5. **İlin ən yaxşı idman jurnalisti** - Tural Xudiyev (“Space” TV)
6. **İlin ən fəal veteran idmançısı** - Məmməd Üseynov (ağırlıqqaldırma)
7. **İlin ən yaxşı idman tarix yazarı** - Dilqəm Quliyev
8. **İlin ən yaxşı idman nəşri** - Gənclər və Nazirliyinin aylıq jurnalı
9. **İlin ən yaxşı idman agentliyi** - “Azerisport”
10. **İlin ən fəal uşaq idman məktəbi** - Lənkəran Uşaq-Gənclər İdman Məktəbi
11. **İlin ən yaxşı idman təşkilatı** - “Neftçi” İdman-Sağlamlıq Mərkəzi
12. **İlin ən yaxşı idman qurğusu** - Heydər Əliyev adına İdman-Konsert Kompleksi
13. **İlin ən yaxşı idman layihəsinin fəal təbliğatçısı** - AzTV
14. **İlin ən yaxşı məşqçisi** - Firdovsi Umudov (sərbəst güləş)
15. **İlin ən yaxşı federasiyası** - Azərbaycan Gimnastika Federasiyası

# 2009-cu il uğurlar və rekordlarla yadda qalacaq





Dekabrın 28-də gənclər və idman naziri Azad Rəhimov 2009-cu ilin yekunlarına həsr olunmuş mətbuat konfransı keçirib. Çıxışına jurnalistləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və yeni il münasibətilə təbrik edərək başlayan nazir qeyd etdi ki, 2009-cu il ölkəmiz üçün çox uğurlu oldu. Başa vurduğumuz il xüsusən də idman sahəsində qazanılan yeni uğurlar və rekordlarla yadda qalacaq.

Nazir, ilk olaraq, dövlət gənclər siyasəti barədə məlumat verdi. Bu sahədə də işlərin uğurla davam etdiyini qeyd etdi. Bildirdi ki, bu il bir sıra rəsm sərgiləri, «Xəmsə» milli-intellektual oyunu, «Şahin» və «Cəsurlar» hərbi-vətənpərvərlik yarışları, kompüter oyunları üzrə IV milli çempionat, 46 ölkədən 50-dən çox məktəblinin qatıldığı dünya elm olimpiadası yüksək səviyyədə keçirilib. Azərbaycan məktəbliləri bu olimpiadada 2 gümüş və 7 bürünc medal qazanıblar.

İl ərzində 62 gənclər təşkilatının 95 layihəsi qəbul olunub və bu layihələrə 800 min manatadək pul ayrılıb.

Bədən tərbiyəsi və idmana gəlincə, 2009-cu ildə idmançılarımız beynəlxalq arenalarda 619 medal qazanıblar ki, bunların da 174-ü olimpiya idman növlərinin payına düşür. Nazir qeyd etdi ki, ölkəmiz bu il möhtəşəm nailiyyətlərə imza atıb. Olimpiya idman növləri üzrə təşkil edilmiş dünya çempionatlarında ilk dəfə olaraq, bir ildə 4 qızıl medal qazanılıb. Ermənistanda təşkil edilmiş gənc cüdoçuların Avropa birinciliyində iştirak edən 5 idmançımızın hamısı Vətənə medalla dönüb. Həm də İrəvanda dövlət himnimiz səslənib. Güləşçilərimiz dünya kuboku, Avropa və dünya çempionatlarında, bədii gimnastika üzrə yığmamız qitə çempionatında, kanoeçilərimiz Avropa və dünya çempionatlarda möhtəşəm çıxış ediblər.

Bu il Sinqapurda keçiriləcək Gənclərin Yay Olimpiya Oyunlarına hazırlıq yüksək səviyyədə gedir. Artıq 5 lisenziya qazanmışıq. Bunlardan 3-ü cüdo, digər 2-si ağırlıqqaldırma və avarçəkmə növündə əldə olunub.

2009-cu ildə ölkədə 33 beynəlxalq turnir keçirilib, idmançılarımız 321 təlim-məşq toplanışında iştirak ediblər.

Azərbaycan idmançıları ümumilikdə, 180 dünya, 228 Avropa çempionatı və birinciliklərində yarışıblar.

2010-cu ildə Bakıda güləş üzrə Avropa çempionatı və bodibildinq üzrə dünya çempionatının, gənclər arasında qılıncoynatma və boks üzrə dünya birinciliklərinin təşkili nəzərdə tutulub.

Uşaq-Gənclər İdman Məktəblərinin yarışlarına ölkənin bütün şəhər və rayonları cəlb ediliblər. Növlər üzrə kütləvi turnirlərə isə neft, rabitə, nəqliyyat, təhsil, səhiyyə və kənd zəhmətkeşləri iştirak ediblər. Üstəlik, kütləvi idmanın inkişafını təmin etmək məqsədi ilə «Çempion» əyləncəli oyunlar proqramı davam etdirilib, master-klass dərsləri keçirilib.

Ölkədə idmanla məşğul olanların sayı 2005-ci ildə 375501 idisə, aparılan gənclər və idman siyasəti nəticəsində 2009-cu ildə bu rəqəm 450325 çatıb.

İdmançıların tibbi-bioloji təminatı üçün nazirlik tərəfindən 500 minə yaxın dərman preparatı və vitaminlər alınıb federasiyalara, idman təşkilatlarına paylanılıb. Dopinqə qarşı 112 test götürüləcək beynəlxalq qurumlara göndərilib.

Bu il Şəmkir, Şərur, İsmayıllı, Hövsan və Şağan Olimpiya İdman Kompleksləri istifadəyə verilib. Bununla da həmin idman qurğularının sayı 24-ə yüksəlib. Digər idman obyektlərimiz - Daxili İşlər Nazirliyinin idman cəmiyyətinin yeni binası, «Sərhədçi» Olimpiya İdman Kompleksi idmançıların ixtiyarına verilib. Mingəçevirdə yenidən qurulan avaçəkmə bazasında son tamamlanma işləri aparılır.

A.Rəhimov qeyd etdi ki, nazirliyin balansında olan olimpiya idman komplekslərində müəyyən edilmiş növlər üzrə idmançıların pulsuz məşq etməsinə heç bir maneə yoxdur.

Boksumuzun hazırkı vəziyyəti ilə bağlı sualı cavablandıran nazir bildirdi ki, federasiyada dəyişikliklər edilib, Kubadan yeni məşqçi dəvət olunub və yaxın illərdə bu sahədə yeni uğurların qazanılacağına ümid edir. Üzgüçülük növündəki vəziyyətdən razı qalmadığını bildirən A.Rəhimov, ölkədə 50 metr uzunluğunda hovuzun olmamasından təəssüfləndiyini bildirdi. Qeyd etdi ki, paytaxtın Böyük Şor adlanan ərazisində yaxın gələcəkdə müasir hovuz komplek-

si inşa ediləcək. Burada dünya standartlarına cavab verən 3 idman qurğusu, o cümlədən, su idman növləri üzrə məşq hovuzları tikiləcək. 60 minlik olimpiya stadionu da məhz bu ərazidə inşa ediləcək.

İdmançıların yaşlarının süni sürətdə azaldılmasına qarşı mübarizənin bundan sonra da davam etdiriləcəyini xüsusi vurğulayan A.Rəhimov, bu qüsurun tam aradan götürülməsi üçün yeniyetmə idmançılara nazirlik tərəfindən xüsusi vəsiqənin verildiyini və onların hər biri haqda məlumatların nazirliyin elektron bazasına daxil edildiyini bildirdi.

Nazirliyin nəzdində yeni yaradılan «Azəridmanservis» müəssisəsi barədə jurnalist sualını cavablandıran nazir qeyd etdi ki, bu müəssisə «Bədən tərbiyəsi və idman haqqında» Qanunun 54-cü maddəsinə əsasən yaradılıb. Bununla da totalizator oyunlarına nəzarətdən əldə edilən gəlir ölkədə bədən tərbiyəsi və idmanın, əsasən də uşaq futbolunun inkişafına sərf ediləcək.

# Azərbaycan Kuba ilə idman əlaqələri yaradır



**Gənclər və idman naziri Azad Rəhimov noyabrın 25-dən 28-dək Kuba Respublikasında rəsmi səfərdə olub.**

Səfər zamanı Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi ilə Kubanın İdman və İstirahət İnstitutu (Nazirliyi) arasında əməkdaşlıq haqqında saziş imzalanıb. Sənəd iki ölkənin idman sahəsində əməkdaşlığı üçün yeni imkanlar açacaq.

Nazir A.Rəhimov Kubanın idman sahəsindəki nailiyyətləri ilə maraqlanıb, "Cubadeporte" dövlət komitəsində, antidopinq tibbi mərkəzində, yüksək səviyyəli idmançılar hazırlayan ali məktəbdə olub. Mütəxəssislərlə görüşən nazir, onların təcrübələri ilə tanış olub, əməkdaşlığa dair fikir mübadiləsi aparıb, boks üzrə iki kubalı mütəxəssisin ölkəmizdə təlim keçməyə başlamasından məmnunluğunu ifadə edib.

A.Rəhimovun Kuba xarici işlər nazirinin müavini Daqoberto Rodrigeslə görüşündə Azərbaycan - Kuba münasibətləri təhlil olunub.

A.Rəhimov Kuba baş nazirinin müavini, Milli Olimpiya Komitəsinin sədri Xose Ramon Fernandes Alvareslə görüşüb və Azərbaycan - Kuba münasibətlərini müzakirə edib. Bu münasibətlərin dinamik və səmərəli inkişaf etdiyi vurğulanıb. Qeyd edilib ki, qısa müddətdə iki ölkə arasında perspektivli layihələr və planlar qəbul edilib və onlar uğurla həyata keçirilir.

Görüşlərdə Azərbaycanın Kubadakı fövqəladə və səlahiyyətli səfiri Aqşin Mehdiyev də iştirak edib.

## Azərbaycan idmançılarının müstəqillik dövründə qazandıqları medallar

### İdman növləri üzrə ümumi medallar

| İllər | Qızıl | Gümüş | Bürünc | Cəmi |
|---|---|---|---|---|
| 1994 | 12 | 15 | 22 | 49 |
| 1995 | 23 | 13 | 22 | 58 |
| 1996 | 22 | 17 | 29 | 68 |
| 1997 | 54 | 45 | 37 | 136 |
| 1998 | 60 | 45 | 63 | 168 |
| 1999 | 70 | 45 | 51 | 166 |
| 2000 | 53 | 38 | 69 | 160 |
| 2001 | 54 | 45 | 74 | 173 |
| 2002 | 53 | 45 | 77 | 175 |
| 2003 | 64 | 54 | 70 | 188 |
| 2004 | 62 | 43 | 86 | 191 |
| 2005 | 62 | 56 | 95 | 213 |
| 2006 | 81 | 73 | 133 | 287 |
| 2007 | 166 | 117 | 169 | 452 |
| 2008 | 205 | 141 | 204 | 550 |
| 2009 | 247 | 177 | 195 | 619 |
| Cəmi: | 1313 | 986 | 1415 | 3714 |

### Olimpiya idman növləri

| | | | | |
|---|---|---|---|---|
| 1994 | 7 | 4 | 7 | 18 |
| 1995 | 5 | 7 | 7 | 19 |
| 1996 | 6 | 5 | 10 | 21 |
| 1997 | 3 | 12 | 7 | 22 |
| 1998 | 16 | 14 | 17 | 47 |
| 1999 | 14 | 14 | 21 | 49 |
| 2000 | 13 | 6 | 9 | 28 |
| 2001 | 12 | 16 | 22 | 50 |
| 2002 | 12 | 22 | 29 | 63 |
| 2003 | 17 | 21 | 36 | 74 |
| 2004 | 19 | 19 | 37 | 75 |
| 2005 | 34 | 29 | 59 | 122 |
| 2006 | 23 | 26 | 72 | 121 |
| 2007 | 61 | 39 | 74 | 174 |
| 2008 | 38 | 34 | 65 | 137 |
| 2009 | 64 | 46 | 64 | 174 |
| **Cəmi:** | **355** | **319** | **540** | **1214** |

### Qeyri-olimpiya idman növləri

| | | | | |
|---|---|---|---|---|
| 1994 | 5 | 11 | 15 | 31 |
| 1995 | 18 | 6 | 15 | 39 |
| 1996 | 16 | 12 | 19 | 47 |
| 1997 | 51 | 33 | 30 | 114 |
| 1998 | 44 | 31 | 46 | 121 |
| 1999 | 56 | 31 | 30 | 117 |
| 2000 | 40 | 32 | 60 | 132 |
| 2001 | 42 | 29 | 52 | 123 |
| 2002 | 41 | 23 | 48 | 112 |
| 2003 | 47 | 33 | 34 | 114 |
| 2004 | 43 | 24 | 49 | 116 |
| 2005 | 28 | 27 | 36 | 91 |
| 2006 | 58 | 47 | 61 | 166 |
| 2007 | 105 | 78 | 95 | 278 |
| 2008 | 167 | 107 | 139 | 413 |
| 2009 | 183 | 131 | 131 | 445 |
| Cəmi: | 958 | 667 | 875 | 2500 |

# "Beynəlxalq idman həyəcanı" proqramının ölkəmizdə icrası yüksək qiymətləndirildi



**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Böyük Britaniya İdman Şurası (UK Sport) arasında 2007-ci il dekabrın 1-də imzalanmış idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu barədə ötənilki saylarımızda məlumat vermişik. Xatırladaq ki, təhsil və idman sahəsində əməkdaşlıq və qarşılıqlı dəstək barədə strateji tərəfdaşlığı özündə ehtiva edən sənəd 14 maddədən ibarətdir və 5 il müddətində qüvvədə olacaq.**

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi ilə Birləşmiş Krallığın İdman Şurası arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu Azərbaycan Respublikası Prezidentinin 10 mart 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilib və "Beynəlxalq idman həyəcanı" proqramının icrasına start verilib.

Proqrama aydınlıq gətirərək qeyd edək ki, o, London Olimpiya Oyunları Təşkilat Komitəsi tərəfindən Beynəlxalq Olimpiya Komitəsinin Sinqapur sessiyasında verilmiş - "bütün dünyada gəncləri bir araya gətirib olimpiya oyunlarının stimullaşdırıcı gücü vasitəsilə onları birləşdirərək, idmanla məşğul olmağa ruhlandırmaq" vədini yerinə yetirmək üçün tərtib edilmiş pilot proqramdır. Proqram dünyanın müxtəlif, xüsusən də inkişaf etməkdə olan ölkələrində yaşayan aztəminatlı ailələrdən olan milyonlarla uşaq və gəncin həyatını idman vasitəsilə inkişaf etdirmək məqsədi daşıyır.

Noyabrın 22-dən 27-dək Britaniya İdman Şurasının nümayəndə heyəti proqramın icrası ilə tanış olmaq məqsədilə ölkəmizdə olub. UK Sport-un icraçı direktoru Con Stilin rəhbərlik etdiyi nümayəndə heyətində "Beynəlxalq idman həyəcanı" proqramının rəhbəri Elayas Musanqeya da yer almışdı.

Noyabrın 23-də "Ramadan" hotelində qonaqların iştirakı ilə proqramın Azərbaycanda həyata keçirilməsinə dair hesabat konfransı olub. Xatırladaq ki, YUNİSEF, Azərbaycan Gənclər və İdman Nazirliyi, Azərbaycan Təhsil Nazirliyi, "British Council", Böyük Britaniya İdman Şurası ilə birgə həyata keçirilən bu proqramın reallaşdırılmasına Milli Olimpiya Komitəsi, Milli Paralimpiya Komitəsi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Uşaq Futbol Federasiyası, Atletika Federasiyası, Voleybol Federasiyası, Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası və Azərbaycan Müəllimlər İnstitutu da cəlb edilmişdi.

Konfransda qeyd edildi ki, proqram çərçivəsində həyata keçirilən 22 layihəyə 303 min ABŞ dolları sərf edilib. Bir nəfər Azərbaycan Milli Olimpiya Komitəsinin tövsiyəsi ilə idmanın idarə edilməsi proqramı üzrə Böyük Britaniyada ikiillik kurs keçir; atlet qızlardan 4-ü ustalığını artırmaq üçün idman təqaüdləri alıb, futbol və voleybol üzrə 9 məşqçi xarici ölkələrdə kurslarda oxuyublar; Bakıda, Gəncədə, Lənkəranda, Sumqayıtda və daha 6 rayonda tədbirlər keçirilib.



Konfransda çıxış edən gənclər və idman naziri Azad Rəhimov Azərbaycanda bu proqramın həyata keçirilməsinin əhəmiyyətini vurğulayaraq qeyd etdi ki, Azərbaycanla Böyük Britaniya İdman Şurası arasında tərəfdaşlıq münasibətləri 2007-ci ilin axırlarında protokol imzalanması ilə başlanıb. İdmanla məşğul olan gənclərin narkomaniyaya və cəmiyyətdə mövcud olan digər neqativ halların təsirinə az məruz qalmasına xüsusi əhəmiyyət verilir. Nazir bildirdi ki, Azərbaycanda bu proqramın davam etdirilməsi bizim maraqlarımıza uyğundur.



Böyük Britaniya İdman Şurasının icraçı direktoru Con Stilin sözünə görə, Azərbaycan “Beynəlxalq idman həyəcanı” proqramının həyata keçirilməsi baxımından ən yaxşı ölkədir. Ölkəmizdə bütün əlaqədar qurumların həmin proqramı necə böyük həvəslə həyata keçirməsinin şahidi olduğunu ifadə edən icraçı direktor ümid etdiyini bildirdi ki, Azərbaycanda bu proqramın icrası 5 il davam etdiriləcək.

Sonra çıxış edənlər bildirdilər ki, Azərbaycanda bu proqramın strategiyası tam həcmdə reallaşdırılıb.

Ölkəmizə səfər çərçivəsində britaniyalı qonaqlar burada keçirilən bir sıra tədbirlərdə iştirak ediblər.

Noyabrın 23-də günün ikinci yarısında qonaqlar Bakı Olimpiya Kompleksində “Arzular-Komandalar” klubundan olan gənc liderlərin təşkil etdiyi idman festivalına baxış keçiriblər.

Sumqayıtdakı Paralimpiya İdman Kompleksində noyabrın 26-da keçirilən mini-futbol və əyləşmiş vəziyyətdə voleybol üzrə turnirlər keçirilib. Yarışlar 3 dekabr - Beynəlxalq Əlillər gününə həsr edilmişdi. Azərbaycan Milli Paralimpiya Komitəsinin və Britaniya İdman Şurasının Bakıdakı nümayəndəliyinin birgə təşkil etdiyi bu idman tədbiri UK Sport tərəfindən həyata keçirilən “Beynəlxalq idman həyəcanı” proqramının tərkib hissəsi idi.

“Beynəlxalq idman həyəcanı” proqramının rəhbəri Elayas Musanqeya da Sumqayıtda yarışların gedişini müşahidə edib. Qonaq turnirlərin qaliblərinin mükafatlandırılması mərasimində də iştirak edib. E.Musanqeya yarış iştirakçılarını təbrik və qaliblərə mükafatlar təqdim edib. E.Musanqeya Sumqayıtda Azərbaycan Milli Paralimpiya Komitəsinin (MPK) baş katibi Afiq Süleymanov, Sumqayıt Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Musa Həsənov və MPK-nın digər rəsmi şəxsləri ilə görüş keçirib. Qonaq qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyev idmanın inkişafına böyük diqqət yetirir: *“Sizin respublika müxtəlif səviyyəli idman yarışlarında fəal və ən əhəmiyyətlisi, çox səmərəli iştirakçıdır”.* Elayas Musanqeya bildirib ki, Azərbaycan dünyada “Beynəlxalq idman həyəcanı” proqramına qoşulmuş beş ölkədən biridir. 2007-ci ildə icrasına başlanmış proqramın həyata keçirilməsinə 23 milyon funt sterlinq xərclənib. O cümlədən Azərbaycan idmanının inkişafına 1,5 milyon funt sterlinq ayrılmışdı.

O xüsusi vurğulayıb ki, UK Sport və 2010-cu ildə başa çatacaq “Beynəlxalq idman həyəcanı” proqramı Azərbaycan Milli Olimpiya və Paralimpiya komitələri ilə fəal əməkdaşlıq edir.

# Nazir Azad Rəhimov britaniyalı həmkarı ilə görüşdü

**Noyabrın 23-də gənclər və idman naziri Azad Rəhimov Birləşmiş Krallığın İdman Şurasının icraçı direktoru Con Stili qəbul edib.**



“Beynəlxalq idman həyəcanı” proqramının icrası ilə yaxından tanış olmaq məqsədilə ölkəmizə təşrif buyurmuş qonağı salamlayan nazir Azad Rəhimov ona 1994-cü ildə yaradılmış nazirliyin tarixi, strukturu, gənclər və idman siyasətini əhatə edən sahələr haqda geniş məlumat verib. Nazir gənclər arasında peşəkar və kütləvi idmanın inkişafı məqsədi ilə müasir standartlara cavab verən olimpiya komplekslərinin tikintisi və fəaliyyəti haqda da danışıb.

Azad Rəhimov, eyni zamanda, “Beynəlxlaq idman həyəcanı” proqramı çərçivəsində görülmüş işlərdən söz açaraq Con Stilə bildirib ki, “Bədən Tərbiyəsi və İdmanın inkişafına dair milli strategiya”nın hazırlanmasında Birləşmiş Krallığın İdman Şurasının böyük dəstəyi olub. Nazir proqram çərçivəsində həyata keçirilən silsilə məşqçilik, atletika, futbol, eyni zamanda paralimpiya treninqlərini xüsusilə vurğulayıb.

Görüşün sonunda cənab C.Stil “Beynəlxalq İdman Həyəcanı” proqramının icrası zamanı göstərdiyi köməyə görə Gənclər və İdman Nazirliyinə öz təşəkkürünü bildirib, gələcək əməkdaşlıqla bağlı Azad Rəhimovla fikir mübadiləsi aparıb.

# Azərbaycan beynəlxalq yarışlar məskənidir

## Bu iddia ötən ilin sonunda da öz aktuallığını qorudu

**Azərbaycanın mötəbər beynəlxalq yarışlar məkanı olması artıq heç kəsi təəccübləndirmir. Ölkənin idman nüfuzunun, beynəlxalq aləmə inteqrasiyasının aynası olan bu yarışların başlıca vəzifəsi birbaşa hər bir növün ölkədə dayaqlarını möhkəmləndirmək, onu yaymaq, vüsətləndirməkdir. Son 2 ay ərzindəki belə yarışlar ilk baxışda gurultulu görünməsə də, konkret məqsədlərə görə, heç də az əhəmiyyətli olmayıb.**

Quba Olimpiya İdman Kompleksində su polosu üzrə turnir idmançıların hazırlıq səviyyəsinin qorunması və bir sıra təhlillərin aparılmasına köməkdir. Hərbi-Dəniz Qüvvələrinin komandasının, MOİK-in və ADBTİA-nın, uyğun olaraq, ilk 3 yeri bölüşdürdüyü yarışın müqayisəli məqamları vaterpolumuz üçün daha vacibdir.

5 ölkənin 160 yeniyetmə və gənc avarçəkəninin 3-cü Mingəçevir reqatasına toplaşmasına nisbətən fərqli prizmadan baxmaq olar. Sürətlə inkişaf edən və bunun üçün dünya təcrübəsini də tətbiq edən Avarçəkmə federasiyası beynəlxalq standartları məhz yetişməkdə olan nəslin imkanlarının genişləndirilməsinə yönəldir. Akademik avarçəkənlər 1, 2 və 4-nəfərlik, kayak və kanoeçilər isə 1 və 2-nəfərlik qayıqlarda 500, 1000, 2000 metr məsafələri qət etdilər. 34 dəst medal oynanıldı. Komanda hesabında yığmamız Gürcüstan və Ukrayna atletlərini geridə qoydu.

Daha bir fərqli yarış tipini güləşçilərin iki beynəlxalq turnirində müşahidə etmək olardı. Azərbaycanda dayaqları daha dərin olan bu növdə yarışların bu qədər lokal xarakteri respublikada güləşin yeni inkişaf strategiyası ilə tam üst-üstə düşür və ümumi vəzifələrin yerinə yetirilməsinə təsiri daha böyükdür. 3 ölkənin güləşçiləri Gəncədə əməkdar məşqçi İsaq Cəfərovun xatirəsinə həsr olunmuş yarışda qüvvələrini sınadılar. Yerli pəhləvanlar və gürcüstanlılar hərəyə 3 qızıl medal qazandılar. Rusiya güləşçiləri yalnız bir çəkidə fəxri kürsünün ən yüksək pilləsinə qalxa bildilər. Yeni istifadəyə verilmiş Şərur Olimpiya İdman Kompleksində Naxçıvan kuboku ətrafına Rusiya, Türkiyə və İran pəhləvanlarını da cəm etdi. Komanda hesabında Naxçıvan komandası 1-ci, Azərbaycan yığması 2-ci, Türkiyə isə 3-cü oldu.

Bakıda 8 ölkənin təmsilçisinin qatıldığı 12 yaşadək uşaqların 3-cü “Makkabi” şahmat turniri də, demək olar ki, eyni məqsədlərə xidmət etdi. İlkin Rəhimli (6,5 xal) mübarizənin qalibi oldu.

Dekabr ayı paytaxtda dalbadal iki boks turniri keçirildi. “Sərhədçi” Olimpiya İdman Mərkəzində Azərbaycan boks məktəbinin banisi Abbas Ağalarovun xatirəsinə həsr olunmuş gənclərin ənənəvi turnirinə 10 ölkədən 70-dən çox idmançı qatılmışdı. Yığmamız 8 medalla komanda hesabında 1-ci yerə çıxdı. Sonrakı 3 yer Rumıniya, İrlandiya və Fransaya qismət oldu.

Bundan 4 gün sonra elə həmin məkanda 2-ci “AİBA Prezidenti Kuboku”na start verildi. AİBA prezidenti Çinq-Kuo Vunun sözləri ilə desək, 5 qitəni təmsil edən 35 ölkədən 88 boksçunun qoşulduğu turnir qurumun illik təqvimində ən mühüm yarışlardandır. 8 komanda (Asiya, Amerika və









Avropa hərəsi 2, Okeaniya və Afrika isə hərəyə 1 komanda) 50 min dollar uğrunda döyüşdü. Azərbaycan boksçularından Samir Məmmədov (54 kq), İsmət Eynullayev (60 kq), Sadiq Eynullayev (64 kq) Avropa-1, Elşən İsmayılov (57 kq), Emil Məhərrəmov (69 kq), Elçin Əlizadə (+91 kq) isə Avropa-2 komandasının heyətində çıxış etdilər. Final mərhələsinə vəsiqə qazanan dörd Azərbaycan boksçusundan Emil Məhərrəmov 69 kq-da qızıl medala sahib oldu. Sadiq Eynullayev (64 kq) gümüş mükafat əldə etdi. Elşən İsmayılov (57 kq) və İsmət Eynullayev (60 kq) "bürünc"lə kifayətləndiər.

Ardıcıl olaraq keçirilmiş, hər iki yarışı, nüfuzunu qaytarmaq üçün yeni nəslə ehtiyacı olan boksumuzun uğur estafeti kimi qələmə vermək mümkündür.

Son vaxtlar Azərbaycanda atçılıq idman növündə də əməli dönüş hiss olunmağa başlayıb. Dövlət Sərhəd Xidmətinin atçılıq mərkəzində "Qız qalası" kuboku uğrunda konkur yarışında cıdır ustalarımızla yanaşı, Fransa, Rusiya və Gürcüstandan gəlmiş 26 at və 15 idmançı məharətlərini göstərdilər. Yeri gəlmişkən, həmin gün mərkəzdə yeni yay manejinin, atların saxlanması üçün müasir tələblərə cavab verən tövlələrin və mehmanxananın açılışı oldu.

İlin ölkədə keçirilən son beynəlxalq yarışının məqsədi isə daha konkret idi. Bakı İdman Sarayında Rusiyanı təmsil edən "Kaspi" komandasının, həmçinin Türkiyə və Gürcüstan yığmalarının qoşulduğu futzal mübarizəsi millimizin final mərhələsi gələn ay keçiriləcək qitə çempionatına hazırlığının ən məsul dövrünü əhatə edir. 3-cü dəfə təşkil edilən yarışda Azərbaycan yığma komandası qalib gəldi.



# NAXÇIVAN ŞƏHƏR UŞAQ - GƏNCLƏR İDMAN MƏKTƏBİNİN YENİ BİNASI İSTİFADƏYƏ VERİLİB



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin, uşaq-gənclər idman məktəbinin yeni binası istifadəyə verilmişdir.

Yeni binanın açılış mərasimində çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov demişdir ki, ümummilli liderimiz Heydər Əliyevin uşaqlara qayğı siyasəti muxtar respublikamızda uğurla həyata keçirilir. Təkcə 2009-cu ildə Naxçıvan şəhərində 1836 şagird yerlik iki məktəb binası, 300 yerlik iki uşaq bağçası, 320 yerlik uşaq musiqi məktəbi, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, şahmat, kompyuter təlim-tədris, peşə-tədris mərkəzləri tikilərək, yaxud yenidən qurularaq uşaq və gənclərin istifadəsinə verilmiş, Naxçıvan Dövlət Uşaq Teatrının fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Şəhər Uşaq-Gənclər İdman Məktəbinin açılışı münasibətilə tədbir iştirakçılarını, uşaq və gəncləri təbrik etmiş, onlara asudə vaxtları səmərəli keçirməkdə uğurlar arzulamışdır. Ali Məclisin sədri demişdir ki, Azərbaycanda "Uşaq ili" müxtəlif yaddaqalan tədbirlərlə davam etdirilir. Azərbaycan Respublikasında ulu öndər Heydər Əliyevin uşaqlara qayğısı bütün zamanlar və bütün ölkələr üçün bir nümunədir. Hazırda bu kursu Prezident İlham Əliyev uğurla davam etdirir, ölkədə uşaqlara, gənclərə xüsusi qayğı göstərilir. Tikilən yeni məktəblər, idman kompleksləri, idman məktəbləri, uşaq bağçaları, uşaq səhiyyə müəssisələri deyilənlərə bir nümunədir. Ölkənin gələcəyi olan uşaqlar sağlam böyüməli, yaxşı təhsil almalı, vətənpərvər olmalıdırlar. Tikilənlər, qurulanlar bu məqsədə xidmət edir. Ölkənin gələcəyinə hesablanmış tədbirlər hazırda uğurla davam etdirilir. Azərbaycanda istedadlı gənclərin, qazanılmış nailiyyətlərin sayının ildən-ilə artması, onların dövlət qayğısı ilə əhatə olunmaları, xarici ölkələrə təhsil almağa göndərilmələri onu göstərir ki, gənclər dövlət qayğısından düzgün istifadə edərək öz üzərlərində çalışır və hərtərəfli bir gənc kimi ölkələri üçün yararlı vətəndaş olmaq istəyirlər. Bunlar əhəmiyyətli məsələlərdir. Əgər gənc öz üzərində çalışırsa, asudə vaxtını idman məktəblərində, sağlamlıq komplekslərində, kompyuter, dil öyrənmə mərkəzlərində keçirirsə, deməli, o, ölkəsi üçün yararlı vətəndaş, vətənpərvər şəxs olacaqdır. Ona görə də şagirdlər asudə vaxtlarını belə mərkəzlərdə keçirməli, həm də yaxşı oxumalı, sağlam böyüməli, gələcəkdə ailəsi üçün, ölkəmiz üçün, cəmiyyətimiz üçün yararlı gənclər olmalıdırlar. Bunun üçün hər cür şərait yaradılmışdır. Açılışı bildirən rəmzi lent kəsildikdən sonra yeni binaya baxış keçirilmişdir.

Müasir tələblər səviyyəsində yenidən qurulan ikimərtəbəli binanın bir hissəsində Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi, digər hissəsində isə uşaq-gənclər idman məktəbi fəaliyyət göstərəcəkdir. Binada idarənin əməkdaşlarının normal fəaliyyəti, uşaqlar və gənclərin idmanla məşğul olmaları üçün hər cür şərait yaradılmışdır.

**AzərTAc**

# İdmançılara və məşqçilərə fəxri adlar təqdim edildi





**Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi Kollegiyasının 26 dekabr 2009-cu il tarixli qərarı ilə ölkədə bədən tərbiyəsinin inkişafındakı xidmətlərinə görə bir qrup idmançı və idman mütəxəssisinə fəxri adlar, eləcə də idman dərəcələri verilib.**

Dekabrın 29-da nazirlikdə həmin fəxri ad və dərəcələrin təqdimetmə mərasimi keçirilib. Tədbirdə çıxış edən nazir müavini İsmayıl İsmayılov 2009-cu ilin idman uğurlarından söz açaraq qazanılan 619 medalın idmanımızda növbəti rekord olduğunu bildirdi. Qeyd etdi ki, bu uğurların qazanılmasında bu gün təltif edilən idman mütəxəssislərinin də böyük rolu var.

Sonra İsmayıl İsmayılov tədbirə toplaşanları nazirliyin kollektivi və şəxsən nazir Azad Rəhimovun adından təbrik etdi və kollegiyanın qərarı ilə təltif edilən şəxslərə müvafiq vəsiqələr təqdim olundu.

Bədən tərbiyəsi və idmanın inkişafındakı, müəssisə və təşkilatlarda kütləvi bədən tərbiyəsi və idman işinin təşkili sahəsindəki xidmətlərinə, Respublika miqyaslı yarışları yüksək səviyyədə idarə etdiklərinə, məşqçilik sahəsində uzun illər fəaliyyət göstərdiklərinə və müvafiq idman növlərində tələb olunan normaları yerinə yetirdiklərinə görə aşağıdakı şəxslər fəxri adlar və idman dərəcələrinə layiq görülüblər:

**«Azərbaycan Respublikasının Fəxri bədən tərbiyəsi və idman işçisi»**

1. Məmmədyarov Qüdrət Tacı oğlu
2. Zamanov Əmir Qafar oğlu
3. Mirzəyeva Svetlana Yevgenyevna
4. Heydərov Tofiq Mirhəsən oğlu
5. İsgəndərov Tofiq Yaqub oğlu
6. Əliyev Məsud Əliyulla oğlu
7. Ağalıyev Aydın Adil oğlu
8. Axundov Zaur Asif oğlu

**«Azərbaycan Respublikasının Əməkdar məşqçisi»**

1. Muradova Emma Orucəliyevna
2. Vəzirov İlham Seyran oğlu
3. Qurbanov Bəhruz Seyfulla oğlu
4. Sidorenko Vladimir Vladimiroviç
5. Əliyev Yengibar Eldar oğlu
6. Məmmədov Fərhad Nizami oğlu
7. Şıxəliyev Azər Şahmar oğlu
8. Qurbanova İradə Əmiraslan qızı
9. Abduləzimova İradə Baxış qızı
10. Rəsulov Yaqub Cabbar oğlu
11. Nurullayev Akif Sevdim oğlu
12. Sultanzadə Məhərrəm Elxan oğlu
13. Quliyev Eldar Babaş oğlu
14. Balasayev Mehdi Yusif oğlu
15. Əbdürəhmanov Şamil Hətəm oğlu
16. Kozırev Anatoli Stepanoviç

**«Respublika dərəcəli hakim»**

1. Əliyeva Telana Tofiq qızı (bədii gimnastika)
2. Cəlilova Səbinə Ramiz qızı (bədii gimnastika)
3. Stepanova Olqa Arkadyevna (güllə atıcılığı)
4. Quliyev Şaiq Nizami oğlu (şahmat)
5. Xasanov Xasan Əliyeviç (atletika)
6. Musayeva Elnarə Zabulla qızı (velosiped idmanı)
7. Qladçenko Dmitri Vitalyeviç (velosiped idmanı)
8. Salehov Kamran Mirsaab oğlu (şahmat)

**«Azərbaycan Respublikasının Əməkdar İdman Ustası»**

1. Ağayev Rəfael Mahir oğlu (karate)
2. Tağıyev Qurban Vaqif oğlu (karate)

**«İdman ustası»**

1. Bünyatova Sevil Yaqut qızı (qılıncoynatma)
2. Meftahəddinova Riqina Sergeyevna (stend atıcılığı)
3. Əlizadə Pərvin Cavanşir qızı (badminton)
4. Qələndərov Orxan Zakir oğlu (badminton)
5. İsmayılov Aqşin Teymur oğlu (velosiped idmanı)
6. Əsədullayev Rasim Faiq oğlu (cüdo)
7. Vəliyeva Ülviyyə Rasim qızı (cüdo)
8. Məmmədov Sain Samir oğlu (cüdo)
9. Muradzadə Şəfəq Mətləb qızı (cüdo)
10. Qatayev Ceyhun Yaşar oğlu (cüdo)
11. Babayev Nadir Mərdan oğlu (cüdo)
12. Cəlilov Cəlil Akif oğlu (cüdo)
13. Muxtarov Elman Coşqun oğlu (yunan-Roma güləşi)
14. Əzizli Eldəniz Yamən oğlu (yunan-Roma güləşi)
15. Əsgərov Toğrul Şəhriyar oğlu (sərbəst güləş)
16. Bəkirov Roman Mehman oğlu (sərbəst güləş)
17. Paşayev Azər Ayazxan oğlu (sərbəst güləş)
18. Əliyev Yaşar Azər oğlu (sərbəst güləş)
19. İsmayılov Elməddin Xosrov oğlu (otüstü hokkey)
20. Rəhimov Nicat Əli oğlu (ağır atletika)
21. Əliyev Sərxan Zakir oğlu (benç-press)
22. Aslanov Bəhruz Aydın oğlu (benç-press)
23. Məmmədov Elnur Məhərrəm oğlu (benç-press)
24. İbrahimov Cabir Qabil oğlu (benç-press)
25. Məmmədov İsrafil Məmməd oğlu (benç-press)
26. Beliyev Asif Məzahir oğlu (pouerliftinq)
27. Bağırov Zaur Cəfər oğlu (sumo)
28. Sadıqov Namiq Nurəddin oğlu (sumo)
29. Mehtiyev Kənan Xanlar oğlu (universal döyüş)
30. Həsənov Cəbrayıl İlham oğlu (sərbəst güləş)

# AİBA-nın Forumu və dünyanın ən yaxşı boksçularının mükafatlandırılma mərasimi Bakıda keçirildi

**Dekabrın 10-da Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Beynəlxalq Boks Assosiasiyasının (AİBA) forumu keçirilib. Forumun işində Assosiasiyanın üzvü olan müxtəlif komitələrin 100-dən çox nümayəndəsi iştirak edirdi.**

Tədbirdə çıxış edən Azərbaycan Boks Federasiyasının prezidenti Kəmaləddin Heydərov forumun ölkəmiz üçün əhəmiyyətindən danışıb. O deyib ki, məhz Bakıda AİBA ailəsi üzvlərinin boksun gələcəyi üçün önəmli məsələləri müzakirə etməsi təsadüfi deyil. Azərbaycanda dünya və Avropa çempionatlarının keçirilməsi artıq ənənəyə çevrilib. Respublikamız dünyada idman ölkəsi kimi şöhrət qazanıb. Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana diqqəti və qayğısı Azərbaycanı bütün dünyada idman ölkəsi kimi tanıdıb. Bu diqqət və qayğının nəticəsidir ki, idmançılarımız müxtəlif yarışlarda nailiyyətlər qazanır, ölkəmiz dünya səviyyəli yarışlara ev sahibliyi edir.

Beynəlxalq Boks Assosiasiyasının prezidenti Çinq-Kuo Vu çıxış edərək, Bakıda həm «AİBA Prezidenti kuboku» turniri, həm də qurumun illik forumunun yüksək səviyyədə təşkil olunduğu üçün Azərbaycan hökumətinə minnətdarlığını bildirib. O deyib: *«Məni bu gün Prezident İlham Əliyev qəbul etdi. Azərbaycan Prezidentinin boksun inkişafına necə böyük diqqət yetirdiyinin bir daha şahidi oldum. Buna görə Prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm.»*

Forumun işi AİBA-nın komitə üzvlərinin müzakirələri ilə davam edib. Müzakirələrdə dünyanın bütün ölkələrində qadın boksunun inkişafı, bu sahədə problemlər və digər məsələlərlə bağlı çıxışlar dinlənilib. Təcrübəli qadın boksçularla yanaşı, bu sahədə hakimlərin, məşqçilərin də yetişdirilməsinin zəruriliyi vurğulanıb.

Forum başa çatdıqdan sonra AİBA ilin yekunlarına görə, 12 nominasiya üzrə ən yaxşılarını mükafatlandırıb.

İlin ən yaxşı boksçusu italiyalı Domeniko Valentino elan olunub. Rusiyalı Sergey Sobelinski yeniyetmələr arasında ilin ən yaxşı boksçusu, Rusiya yığmasının məşqçisi Nikolay Xromov isə ilin ən yaxşı məşqçisi seçilib.







Bundan əlavə, ən yaxşı hakim, sponsor, jurnalist, texniki komitə və digər nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim edilib.

# Gənclər və İdman Nazirliyinin yeni müəssisəsi yaradılıb

Gənclər və İdman Nazirliyi nəzdində "Azəridmanservis" dövlət müəssisəsi yaradılıb. Yeni qurum iyunun 30-da Milli Məclisdə qəbul olunan "Bədən Tərbiyəsi və İdman haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təsis edilib. Hazırda "Azəridmanservis"in əsasnaməsinin hazırlanması, operatorun təyin olunması prosesi gedir. İşləri aparacaq operator müəyyənləşdirildikdən sonra onunla "Azəridmanservis" arasında müqavilə imzalanacaq.

"Azəridmanservis" ölkəmizdə idman lotereyası, idman mərc oyunlarının (totalizator) keçirilməsindən daxil olan vəsaitlərə nəzarət edəcək.

Qeyd edək ki, "Bədən Tərbiyəsi və İdman haqqında" qanunun 54-cü maddəsinə əsasən, Bədən tərbiyəsi və idman Azərbaycan Respublikasının dövlət büdcəsindən ayrılan, bədən tərbiyəsi və idman tədbirlərinin keçirilməsindən əldə olunan, idman lotereyasının, idman mərc oyunlarının keçirilməsindən daxil olan vəsaitlər, fiziki və hüquqi şəxslərin ianələri hesabına və qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən maliyyələşdirilir.

# Ötən ayların əsas uğurları

## Noyabr-dekabr (2009)

### Dünya və qitə çempionatları, kubok yarışları və qran-pri turnirləri

**Olimpiya növləri**

* Linyanoda (İtaliya) veteran cüdoçuların ilk Avropa çempionatında Fərhad Rəcəbli (100 kq) , Məhəmməd Müslümzadə (+100 kq) və Zülfiyyə Hüseynova (78 kq) qızıl medala sahib çıxıblar.
* Kişinyovda (Moldova) "Çelenc Trofi" turnirində Azərbaycanın kişi həndbolçular yığması üçüncü yeri tutub.
* Əbu Dabidə (BƏƏ) cüdoçuların qran-pri yarışında Elxan Rəcəbli (81 kq) və Elxan Məmmədov (90 kq) bürünc mükafat qazanıblar.
* Antalyada (Türkiyə) 23 yaşadək cüdoçuların qitə çempionatında Ramilə Yusubova (63 kq) bürünc medal qazanıb.
* Seulda (Koreya) ağırlıqqaldıranların dünya çempionatında Nizami Paşayev iki hərəkətin cəmində 387 kq nəticə ilə (birdən qaldırmada 177 kq+təkanla qaldırmada 210 kq) gümüş mükafata layiq görülüb.
* Banqalorda (Hindistan) paralimpiyaçı atletlərin dünya çempionatında Oluxan Musayev ağırlıqatmada birinci, Hüseyn Həsənov uzunluğa tullanmada ikinci yeri tutublar.
* Sidneydə (Avstraliya) veteranların birinci Olimpiya oyunlarında keçmiş Avropa və dünya çempionu, MOİK-in 50 yaşlı çavuşu Akif Alıyev 1950-1959-cu illər təvəllüdlü ağırlıqqaldıranların yarışında 175 kq (80 kq+95 kq) nəticə ilə zirvəyə qalxan ilk idmançımız olub.

**Qeyri-olimpiya növləri**

* Dohada (Qətər) bodibildinq üzrə dünya çempionatında Azərbaycanı təmsil edən Həmid Rza Kəşani (90 kq) bürünc mükafata layiq görülüb.
* Moskvada (Rusiya) pencak silat və sindo-ryu üzrə dünya kubokunda Elxan Əlizadə (28 kq), Süleyman Dadaşlı (48 kq) və Minnar Mehrabov (54 kq) qızıl, Fərhad Məmmədli (37 kq) və Kənan Ayazzadə (42 kq) gümüş, Həmid Məmmədov (32 kq), Xaqani Əlizadə (46 kq) və Rüfət Elzarov (58 kq) bürünc medal əldə ediblər.
* Las Veqasda (ABŞ) pauerliftinq, tədricən ağırlıqdartma və dartınma üzrə dünya çempionatında (WPF versiyası) Bəxtiyar Quliyev (100 kq) və Rüfət Ağayev (125 kq) üçnövçülükdə, Vüqar Namazov (+140 kq) dartınmada ən yaxşı nəticəyə nail olublar.
* Buxarestdə (Rumıniya) kempo karate üzrə dünya çempionatında Qismət Cəbizadə (35 kq) və Rauf İbrahimov (+100 kq) "qızıl", Ümid Əliyev, Ruslan Ələkbərli (hər ikisi - 60 kq) və Rauf İbrahimov (+100 kq) "gümüş", bundan savayı, katada Qismət Cəbizadə, Ruslan Ələkbərli və Mahir İsmayılov, kumitedə Namid Muradov (60 kq) və Xaqani Firudinzadə (70 kq) "bürünc" nəticə göstəriblər.
* Omskda (Rusiya) gənc pankrationçuların ikinci dünya çempionatında medal qazanan 10 nəfərdən Nazənin Məmmədova (52 kq) və Vüqar Kərimov (57 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Gümüş medalları Məlik Məmmədov (40 kq), Ziya Fətəliyev (48 kq), Elvin Məlikov (56 kq), Əjdər Mehdizadə (57 kq), Xəyalə Əsgərova (58 kq) və Aslan Rüstəmov (67 kq), "bürünc"ü isə İsrafil Musasoylu (52 kq) və İlham Teymurov (79 kq) qazanıblar. Komanda hesabında atletlərimiz 3-cü yeri tutublar.
* Kişinyovda (Moldova) kikboksinqçilərin (WPKA versiyası üzrə) Avropa çempionatında Fuad Zeynalov (81 kq), Aydın Vəliyev (64 kq) və Nurlan Qədimov (57 kq) ustalar, Nikita Bolşakov (81 kq) gənclər arasında Avropa çempionu olublar. Fuad Zeynalov K-1 və lou-kik bölmələrində 2 qızıl medal əldə edib. Aydın Vəliyev və Nurlan Qədimov da lou-kik versiyası üzrə fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Eyyub Quliyev (71 kq) gümüş mükafata sahib çıxıb.
* Antalyada (Türkiyə) Günay Məmmədzadə 10-yaşlı şahmatçıların dünya çempionatında 10,5 xalla baş mükafatı qazanıb. Həmin yaş qrupunda Aydan Höcətova (8,5 xal) 2-3-cü, Nərmin Kazımova (8 xal) 16-yaşlıların mübarizəsində 3-4-cü, Abdulla Qədimbəyli (8,5 xal) 8 yaşlı oğlanların yarışında 2-5-ci yerləri bölüşdürüblər.
* Salonikidə (Yunanıstan) samboçuların dünya çempionatında İslam Qasımov (57 kq) gümüş mükafata sahib çıxıb.
* Linyanoda (İtaliya) kikboksinqçilərin full-kontakt üzrə dünya çempionatında (WAKO versiyası) Eduard Məmmədov (60 kq) 12-ci dəfə planetin ən güclüsü olub. Emin Kərimov gümüş, Ehram Məcidov və Sərxan Cabbarov bürünc medallara sahib çıxıblar. Yığmamız komanda hesabında 2-ci nəticə göstərib.
* Sofiyada Beynəlxalq Kung-fu Federasiyasının təşkilatçılığı ilə dünya kuboku uğrunda turnirdə Azərbaycan idmançıları 5 qızıl, 2 gümüş və 1 bürünc medal qazanıblar. Bütün döyüşlərini qələbə ilə başa vuran Araz Abdulov, Veysəl Qənbərov, Ceyhun Babayev, Fərid Mayılov və Babək Əliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Anar İmanov və Mustafa Məmmədzadə dünya kubokunu ikinci, Bəhruz Həsənov isə üçüncü yerdə başa vurublar. Babək Əliyev yarışın təşkilat komitəsi tərəfindən "ən texnikalı idmançı" elan edilərək kubokla mükafatlandırılıb.

***Ötən iki ayın uğurları arasında yer alan beynəlxalq turnirlərə gəlincə, bədii gimnastlarımızın qələbələri xüsusilə seçilir. Belçikada 10 mükafat (4 qızıl, 4 gümüş və 2 bürünc) qazanılıb. Çoxnövçükdə Lalə Yusifova birinci, Aişə Mustafayeva üçüncü yeri tutub. Lalə həmçinin halqa və topla hərəkətlərdə qızıl, iplə bürünc medala sahib çıxıb. Aişə gürzlə qalib gəlib, top, halqa və iplə ikinci olub. Sloveniyada Anna Qurbanova 5 medala yiyələnib (çoxnövçülükdə, eləcə də ip, halqa və topla qızıl, lentlə gümüş). Padderbornda (Almaniya) Yekaterina Prokopenko 1996-1997-ci illər təvəllüdlülərin yarışında ikinci, Aliyə Paşayeva, İradə Əhədzadə, Mənsurə Mehdiyeva və Mədinə Həsənovadan ibarət qrup komandası isə üçüncü olub. Qadın akrobatlar Ayla Əhmədova və Dilarə Sultanova cütlüyünün Polşadakı qələbəsi isə ötən dövrün ən ümidverici nəticələrindəndir.***

# “Yaxşıların yaxşısı-2009”

Dekabrın 25-də 2009-cu ildə paytaxtın gənclər və idman sahəsində fərqlənənlərin mükafatlandırılmasına həsr olunmuş “Yaxşıların yaxşısı-2009” mərasimi keçirilib. Hər ilin sonunda Bakı şəhəri Gənclər və İdman Baş İdarəsinin təşkil etdiyi tədbir bu il “Ambassador” otelində keçirildi.

Mərasimdə çıxış edən idarənin rəisi Raqif Abbasov başa çatmaqda olan ilin paytaxtımız üçün uğurlu olduğunu qeyd etdi. Bildirdi ki, ölkə idmanının uğurlarında payı olan idmançıların böyük əksəriyyətin Bakı şəhərinin nümayəndələri təşkil edirlər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Xəzər İsayev çıxışında idarənin fəaliyyətindəki uğurlardan bəhs etdi.

Gənclər və idman nazirinin müavini İntiqam Babayev 2009-cu ildə həm gənclər sahəsində, həm də idman siyasətində əldə olunan uğurların əvvəlki illərlə müqayisədə daha çox olduğunu bildirdi. Qeyd etdi ki, bu uğurlarda paytaxtın payı daha böyükdür.

Tədbirdə həm idman, həm də gənclər sahəsində fərqlənənlərə, eləcə də bu uğurları təbliğ edən KİV nümayəndələrinə Bakı şəhəri Gənclər və İdman Baş İdarəinin diplomları və hədiyyələri təqdim edildi.

Mərasim incəsənət ustalarının ifasında maraqlı konsert proqramı ilə başa çatdı.




# Daha bir tarixi uğur!

## Kanoeçimiz Sinqapur Yay Olimpiya Oyunlarına lisenziya qazandı

SINGAPORE 2010
YOUTH OLYMPIC GAMES

**Azərbaycan Milli Avarçəkmə Federasiyasının (AMAF) son illərdə əldə etdiyi tarixi uğurlara daha biri əlavə olunub. Dekabrın 18-də Beynəlxalq Olimpiya Komitəsindən (BOK) ölkəmizə göndərilən məktubda Azərbaycanın kanoe qayıqlarında avarçəkmə novündə bu il Sinqapurda keçiriləcək Gənclərin I Yay Olimpiya Oyunlarına lisenziya qazandığı açıqlanıb.**

Bu lisenziyanı ölkəmizə Andrey Kraytor qazandırıb. Kraytor 30 iyul - 2 avqustda Rusiyanın paytaxtı Moskvada keçirilmiş yeniyetmələr arasında dünya birinciliyində 6-cı yeri tutub. Həmin vaxt Beynəlxalq Kanoe Federasiyası (İCF) bu nəticənin Sinqapur olimpiadasına vəsiqə qazanmağa imkan verməsinə dair qəti qərar qəbul etməmişdi. Amma ehtimal yüksək idi. Nəhayət, BOK-dan göndərilən məktubda məsələyə tam aydınlıq gətirilib.

2009-cu ildə avarçəkənlərimiz xüsusən, kanoe növündə böyük uğurlara imza atıblar. Böyüklərin yarışında çıxış edən Valentin Demyanenko Avropa və dünya çempionu olub, Sergey Bezuqlı - Maksim Prokopenko dueti Avropa çempionatında bir bürünc, dünya çempionatında isə bir gümüş və bir bürünc medal qazanıb. Yeniyetmələr arasında dünya çempionatında Andrey Kraytorun da uğurlu çıxışı və Azərbaycana Sinqapur olimpiadasına lisenziya qazandırması ölkəmizdə kanoe növünün artıq bir məktəb kimi formalaşmasından xəbər verir. Bu isə gənc nəsil arasında avarçəkmənin xüsusən kanoe növünə marağın artmasına xidmət edir.

Qaydalara əsasən, Gənclərin Sinqapur Yay Olimpiya Oyunlarında 1993-1994-cü il təvəllüdlü kanoeçilər çıxış edəcəklər. Andrey Kraytor isə 1992-ci il təvəllüdlü olduğundan, olimpiadaya yollana bilməyəcək. Bu halda onu 16-17 yaşlı kanoeçilərimizdən biri əvəzləyəcək.






**Şəki Olimpiya İdman Kompleksi**
9 noyabr 2002-ci il